# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

03 mart 2026-cı il, çərşənbə axşamı
№ 040 (7107)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan Liderinin 4 qızıl qaydası



## Qlobal kataklizmlər fonunda ölkəmizi sabitlik adasına, Cənubi Qafqazı əməkdaşlıq və geosiyasi cazibə mərkəzinə çevirib

Bax səh. 2

# Dövlət quruculuğunda yeni mərhələ

Bax səh. 4

## Azərbaycan - Afrika əlaqələri yeni mərhələdə

Müstəqil Azərbaycanın milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursu yaxın və uzaq coğrafiyaları əhatə edir. İndiyədək Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən fəal diplomatiya səmərəli nəticələri ilə diqqət çəkir ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə nüfuzunun artmasında özünü qabarıq şəkildə göstərir. Qürurverici haldır ki, bu gün Azərbaycana yaxın qonşuluqda, geniş İslam coğrafiyasında, Türk birliyində, Avropa İttifaqında (Aİ) dərin hörmət bəslənilir və respublikamız körpülər yaradan dialoq məkanı kimi tanınır.

Son illərdə isə Azərbaycan, necə deyərlər, həm də Afrikanı fəth etməkdədir. Bu günlərdə Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin respublikamıza uğurla baş tutan səfəri Afrikada Azərbaycana marağın artdığını əyani şəkildə təsdiqləyir.

Afrika ərazisinə görə, Avrasiyadan sonra ikinci böyük materikdir. Afrikannın  sahəsi 29,2 milyon, adalarla birlikdə isə 30,3 milyon kvadratkilometrdir. Qitənin adı latın dilində “soyuq bilməyən” mənasını verən “afrikus” sözündən əmələ gəlib. Digər bir ehtimala görə isə Afrika adı materikin şimal-şərqində yaşamış “afrigi” tayfasının adından götürülüb.

Afrika elə bir məkandır ki...

Bax səh. 3

## Avropa Bankından nikbin proqnoz




Bax səh. 4

## Tramp və Ali Məhkəmə: ticarət müharibəsinin hüquqi sərhədi və prezident səlahiyyətlərinin toqquşması

Bax səh. 6

## Həyatı özünə işlədən adam

Bax səh. 7

## Proseslər dövlətimizin diqqət mərkəzindədir

Yaxın Şərq regionunda, xüsusilə İranda baş verən hadisələr Azərbaycanın diqqət mərkəzindədir. Regional hərbi eskalasiya ilə bağlı Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib ki, bölgədə və qlobal səviyyədə təhlükəsizlik və sabitlik üçün ciddi təhdid yaradan hərbi eskalasiya dərin narahatlıq doğurur.  “Qəti şəkildə, bütün tərəfləri maksimum təmkin nümayiş etdirməyə, gərginliyi daha da artıracaq hərəkətlərdən çəkinməyə və danışıqlar masasına qayıtmağa çağırırıq. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsiplərinə uyğun olaraq bütün dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə hörmət edilməsinin vacibliyini vurğulayırıq”, - deyə bəyanatda vurğulanıb.

Qeyd edək ki, yaranmış gərginlik fonunda XİN fevralın 28-də İsraildə və İranda olan Azərbaycan vətəndaşlarına müraciət etmişdi. Belə ki, İran ətrafında müşahidə olunan mövcud gərginlik fonunda Azərbaycan vətəndaşları İsrailə səfərdən çəkinməyə çağırılıb. Bildirilib ki, hazırda İsraildə olan vətəndaşlarımızdan təhlükəsizlik vəziyyətini diqqətlə izləmələri, yerli hakimiyyət orqanlarının göstəriş və tövsiyələrinə riayət etmələri, kütləvi toplaşma yerlərindən uzaq durmaları və şəxsi təhlükəsizlik tədbirlərini gücləndirmələri xahiş olunub.

Eləcə də, İran İslam Respublikasında təhlükəsizlik vəziyyətinin...

Bax səh. 3



## Yaxın Şərqdə hərbi eskalasiya...

Bax səh. 5




## Pakistan terrorçuları məhv edir...

Bax səh. 6

# Ekoloji durumun yaxşılaşdırılmasına yönəlmiş layihələr davam etdirilir

## Prezident İlham Əliyev Bakıda məişət tullantıları daşıyan texnikalarla tanış olub





Martın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzinin həyətində məişət tullantıları daşıyan texnikalarla tanış olub.

AZƏRTAC xəbər verir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi ilə Gəncə avtomobil zavodunda istehsal edilən bu texnikalar ölkəmizin müxtəlif şəhər və rayonlarına göndəriləcək.

Ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov və "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Xanlar Fətiyev layihə barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirilib ki, ümumilikdə layihə çərçivəsində hər birinin tutumu 22 kubmetr olan 70 kommunal texnika istehsal edilib. Kommunal texnikanın iki toplantı meydançasından - Bakı şəhərində Ekspo Mərkəzinin qarşısından və Gəncə şəhərində avtomobil zavodunun həyətindən Azərbaycanın 58 şəhər və rayonuna göndərilməsi nəzərdə tutulur.

Azərbaycanda paytaxt Bakı ilə yanaşı, bölgələrimizin inkişafı, orada müasir sosial infrastrukturun, o cümlədən parkların, yaşıllıq və meşə zolaqlarının yaradılması və bununla da ümumilikdə ölkəmizin ekoloji durumunun yaxşılaşdırılmasına yönəlmiş layihələr ardıcıl şəkildə davam etdirilir. Bu baxımdan məişət tullantıları daşıyan texnikaların şəhər və rayonlarımıza göndərilməsi bir neçə vacib amili özündə birləşdirir. Belə ki, bu, ilk növbədə regionlarda kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsi və sanitariya-gigiyena vəziyyətinin yaxşılaşdırılmasına töhfə verəcək. Beləliklə, müasir yeni texnikalar məişət tullantılarının vaxtında və səmərəli daşınmasını, yaşayış məntəqələrində təmizlik işlərinin daha keyfiyyətli aparılmasını təmin edəcək. Bununla yanaşı, layihə ətraf mühitin mühafizəsi baxımından da mühüm rol oynayır. Layihənin daha bir mühüm məqamı odur ki, bu texnikalar yerli istehsaldır. Ümumilikdə, indiyədək Gəncə avtomobil zavodunda çox sayda traktor, kombayn, digər kənd təsərrüfatı texnikası, minik və yük avtomobili və sair texnika istehsal olunub.

Qeyd edək ki, Gəncə avtomobil zavodunun əsası 1986-cı ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulub. 2004-cü ildə Prezident İlham Əliyevin tapşırığı ilə bu istehsal müəssisəsi fəaliyyətə başlayıb. Hazırda zavodda 500-ə yaxın işçi çalışır.

# Aleksey Overçuk Azərbaycan Prezidentinin qəbulunda...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Rusiya Federasiyası Hökuməti Sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüş əsnasında Rusiya tərəfi regionda mürəkkəb və gərgin şərait fonunda Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində operativ köməyə görə Azərbaycan rəhbərliyinə səmimi təşəkkürünü bildirib.

Azərbaycan-Rusiya münasibətlərinin gündəliyi ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Söhbət zamanı qeyd edilib ki, Azərbaycan və Rusiya liderlərinin 2025-ci il oktyabrın 9-da Düşənbədə keçirilən görüşündə əldə etdikləri razılaşmalara uyğun olaraq, tərəflər 2024-cü il dekabrın 25-də "AZAL" təyyarəsinin qəzaya uğraması nəticəsində yaranan problemlərin həlli üzrə yaxın vaxtlarda kompleks praktik addımlar atacaqlar.

Azərbaycan ilə Rusiya arasında qarşılıqlı faydalı iqtisadi-ticari, investisiya, sənaye və nəqliyyat-logistika əməkdaşlığının gələcəkdə daha da inkişaf etdirilməsinə dair ortaq niyyətə diqqət yetirilib.

Görüşdə regionda nəqliyyat əlaqələrinin inkişafı perspektivləri müzakirə edilib.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə işləri davam etdirmək üçün ortaq niyyət təsdiqlənib.

Söhbət əsnasında bir sıra humanitar məsələlər də müzakirə edilib.

Görüş Azərbaycan-Rusiya dövlətlərarası dialoquna xas olan ənənəvi dostluq və konstruktiv şəraitdə keçib.

# Azərbaycan Liderinin 4 qızıl qaydası

## Qlobal kataklizmlər fonunda ölkəmizi sabitlik adasına, Cənubi Qafqazı əməkdaşlıq və geosiyasi cazibə mərkəzinə çevirib



Müasir beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliklər baş verir. XXI əsrin üçüncü onilliyində - qlobal kataklizmlər, çoxsaylı təhdid və çağırışlar fonunda dünyanın geosiyasi mənzərəsi olduqca mürəkkəb və ziddiyyətlidir. İqtisadi tənəzzül, qeyri-sabitlik, kənar müdaxilələrin acı nəticələri və digər mənfi hallar müxtəlif ölkələr və bölgələrin real durumunu əks etdirir. Bu xüsusda "rəngli ssenari"lər, iğtişaşlar, inqilablar, çevrilişlər, üsyanlar bir sıra regionlar üçün siyasi ənənəyə çevrilib - faktiki olaraq xroniki geosiyasi xəstəlik halını alıb.

**Tarix ilə coğrafiyanın qovuşuğunda, yaxud mürəkkəb coğrafiyada tarix yazan Azərbaycan**

XVIII əsr maarifçi - filosofu Şarl Monteskye qeyd edir ki, coğrafiya xalqların taleyidir. Amma dövlətlər dünyaya yazılı tale ilə gəlmirlər. Çünki ərazi mühüm amil olsa da, həlledici deyil.

Böyük dövlətlərin təcrübəsi ilə yanaşı, dünyada mütərəqqi model kimi qəbul və təqdir edilən Azərbaycan nümunəsi də var. Ölkəmizin coğrafi mövqeyi kimi, Cənubi Qafqaz regionunun reallıqları da bəllidir. Azərbaycan maraqların toqquşduğu, kəsişdiyi - uzlaşdığı bölgədə müxtəlif "geosiyasi tamah" sahiblərinin maraq obyektindədir. Bir sıra coğrafi cəhətlərdən "geostrateji rüzgar"lar zaman-zaman sərt "hava kütləsi" kimi ölkəmizə də yönəlir: müxtəlif mexanizmlər işə salınır, fərqli vasitələrdən - alətlərdən istifadə olunur, Azərbaycanı hansısa güzəştə məcbur etməyə çalışırlar.

Belə bir çətin şəraitdə ölkədə sabitliyi, həmrəyliyi qoruya, üçrəngli bayrağımızı bütün suveren ərazilərimizdə dalğalandıra, uzun müddət işğal altında qalmış torpaqlarımızı hərbi-siyasi əsarətdən xilas edərək azad və abad məkana çevirə bilmişik. İndi dövlətçiliyin daha bir işıqlı marşrutu - Zəfər yolu hərbi müstəvidə qazanılmış Qələbəni diplomatik-siyasi arenada və quruculuq meydanında möhkəmləndirmək, iqtisadi gücümüzü, ictimai immunitetimizi artırmaq, siyasi üstünlüyümüzü və beynəlxalq mövqeyimizi gücləndirmək üçün dayanıqlı zəmin rolunu oynayır.

**Lider fenomeni və güclü dövlət - müasir Azərbaycan gerçəkliyi**

Dünyada indiyə qədər çox sayda münaqişə və müharibələr baş verib. Öz müstəqilliyini, ərazi bütövlüyünü qorumaq və suverenliyini bərpa etmək üçün milli mübarizəyə qalxan millətlər heç də həmişə qalib olmayıblar. Yalnız qətiyyətli lideri olan və milli birliyə nail olmuş xalqlar haqqədaləti təmin edə biliblər.

Prezident İlham Əliyevin güclü dövlət konsepsiyası Azərbaycanı xaos və anarxiya meydanına, geosiyasi mübarizə poliqonuna, qarşıdurma məkanına çevrilməkdən xilas edərək sabitlik və inkişaf məkanı kimi şanlı Zəfər zirvəsinə yüksəldib. Dövlət başçısının qətiyyətli liderliyi və xalqımızın həmrəyliyi sayəsində tarixi ədaləti bərpa edən Azərbaycan bu gün dünyada söz və nüfuz sahibi olan etibarlı tərəfdaş, regionun lider ölkəsi kimi diqqət mərkəzindədir.

**Strateji təmkin: milli maraqları təmin edən mühüm faktor**

Azərbaycan kimi uzun müddət işğal, bölücülük və ikili standartlardan əziyyət çəkən bir çox dövlət, o cümlədən postsovet ölkələri mövcuddur. Hər birinin özünəməxsus iqtisadi, hərbi-strateji potensialı, demoqrafik və geosiyasi resursları var. Amma regionda mürəkkəb beynəlxalq vəziyyətdə, çətin şərtlər və şərait fonunda haqq işini Qələbə ilə yekunlaşdıran, separatizm kimi "geopolitik xərçəng daşıyıcısı olan hüceyrələrin metastazı"nın qarşısını alaraq dövlətin vahid siyasi orqanizm olaraq bütöv sağlamlığını təmin edən ölkə məhz Azərbaycandır. Uzun müddət bölgədə kök salmış neqativ vəziyyətdən istifadə etməyə çalışan məkrli qüvvələrin - geosiyasi avantüristlərin planlarını pozaraq - niyyətlərini iflasa uğradaraq işğal faktını aradan qaldırmaq, sadəcə olaraq, fövqəladə nailiyyətdir.

Tarix dünənin siyasəti, siyasət isə bu günün tarixidir. İndi Azərbaycanın praqmatik və konstruktiv siyasəti, diplomatik müstəvidə çoxkombinasiyalı strateji gedişləri sayəsində bölgədə yeni təhlükəsizlik və əməkdaşlıq mühiti formalaşır. Avrasiyanın "heartland" nöqtələrindən hesab olunan Cənubi Qafqazın bir əsrlik geosiyasi arxitekturası dəyişir, uzun illər hərbi-siyasi toqquşma məkanı olan, gərginliyin və narahatlığın hökm sürdüyü regionda əməkdaşlıq, inteqrasiya üçün yeni imkanlar meydana çıxır ki, bu da bütün tərəflər üçün faydalı və perspektivlidir.

Ötən il avqust ayının 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp tərəfindən Birgə Bəyannamənin imzalanması sülh prosesinin irəliyə aparılması baxımından böyük dəyərə malik olmaqla postmüharibə dövründə regionda mühüm tarixi dönəmin başlanmasını şərtləndirib. İkiqütblü dünya nizamının sıradan çıxmasından sonra, yəni ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlindən bugünədək Cənubi Qafqazda hökm sürən defakto müharibə vəziyyəti Azərbaycanın regional sabitlik, təhlükəsizlik və işbirliyinə hədəflənən sülh diplomatiyası sayəsində qeyri-müharibə şəraitinə transformasiya olunub. Artıq 44 günlük müharibədən sonra münaqişənin guya hələ də mövcud olması ilə bağlı süni gündəm və görüntü yaratmağa çalışan, siyasi və informasiya təxribatları törədən bəzi xarici mərkəzlər belə, bu cəhdlərdən imtina etmək məcburiyyətində qalıblar.

Bütün bunlar Prezident İlham Əliyevin milli maraqlara və qlobal çağırışlara söykənən strateji kursunu 4 qızıl qayda əsasında müəyyənləşdirməsi sayəsində mümkün olub:

- Vaxtı düzgün seçmək;
- avantüraya getməmək;
- ölkəni risk altına salmamaq;
- mümkün dərəcədə - maksimum uğura nail olmaq.

**Bakı regionun diplomatiya paytaxtı kimi...**

Azərbaycan Prezidenti müdrik dövlət xadimi, təcrübəli siyasətçi, qətiyyətli lider kimi yeni mərhələdə də vaxtı düzgün seçir: ölkəmiz nə tələsir, nə gecikir - hər şey vaxtında! Təxribatlara, sabotajlara, prosesləri pozmaq cəhdlərinə, süni müdaxilələrə, ikili standartlara baxmayaraq, strateji təmkinə əsaslanan siyasi kursun reallaşdırılması nəticəsində Bakının mövqeyinə üstünlük - rəyinə müstəsna önəm verilir:

- Azərbaycana etibarlı tərəfdaş kimi böyük inam və etimad var. Ölkəmiz bu gün bir-biri ilə əks mövqelərdə - zidd geosiyasi qütblərdə dayanan tərəflərlə belə gərginliyə malik deyil, əksinə, qarşılıqlı faydalı və bərabərhüquqlu tərəfdaşlığa sahibdir;
- Azərbaycan dialoq və işbirliyi məkanı olduğunu təsdiqləyib. Bu vaxta qədər güc mərkəzlərinin nümayəndələrinin bir çox görüşləri məhz Bakıda baş tutub, regional və beynəlxalq təhlükəsizliyə dair mühüm müzakirələr Azərbaycanın paytaxtında aparılıb. Dialoq və əməkdaşlıq məkanı olan Bakı artıq Cənubi Qafqazın diplomatiya paytaxtı kimi xarakterizə edilir;
- Azərbaycan daim beynəlxalq hüquqa hörmət olunmasının tərəfdarıdır. Uzun müddət Ermənistanın işğalçı və terrorçu siyasətindən əziyyət çəkən Azərbaycan hər zaman beynəlxalq hüquq normalarına riayət edilməsini vacib prinsip kimi əsas götürüb və bu, indi də dəyişməz xarici siyasət paradiqmasıdır.

Nəticə etibarilə, Azərbaycan Liderinin 4 qızıl qaydası qlobal kataklizmlər fonunda ölkəmizi sabitlik və təhlükəsizlik adasına, Cənubi Qafqazı isə geosiyasi cazibə mərkəzinə çevirib.



***Nurlan QƏLƏNDƏRLİ,***
***Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

# Azərbaycan - Afrika əlaqələri yeni mərhələdə

Müstəqil Azərbaycanın milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursu yaxın və uzaq coğrafiyaları əhatə edir. İndiyədək Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən fəal diplomatiya səmərəli nəticələri ilə diqqət çəkir ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə nüfuzunun artmasında özünü qabarıq şəkildə göstərir. Qürurverici haldır ki, bu gün Azərbaycana yaxın qonşuluqda, geniş İslam coğrafiyasında, Türk birliyində, Avropa İttifaqında (Aİ) dərin hörmət bəslənilir və respublikamız körpülər yaradan dialoq məkanı kimi tanınır.

Son illərdə isə Azərbaycan, necə deyərlər, həm də Afrikanı fəth etməkdədir. Bu günlərdə Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin respublikamıza uğurla baş tutan səfəri Afrikada Azərbaycana marağın artdığını əyani şəkildə təsdiqləyir.



## Afrikada Azərbaycana artan marağın 2 mühüm səbəbi

Afrika ərazisinə görə Avrasiyadan sonra ikinci böyük materikdir. Afrikannın sahəsi 29,2 milyon , adalarla birlikdə isə 30,3 milyon kvadratkilometrdir. Qitənin adı latın dilində "soyuq bilməyən" mənasını verən "afrikus" sözündən əmələ gəlib. Digər bir ehtimala görə isə Afrika adı materikin şimal-şərqində yaşamış "afrigi" tayfasının adından götürülüb.

Afrika elə bir məkandır ki, dünyanın bir sıra möcüzələrinə məhz burada rast gəlmək mümkündür. Belə ki, Yer üzünün ən uzun çayı, ən uzun şirinsulu gölü, şərq yarımkürəsinin ən bol sulu çayı, quruda yer qabığının ən uzun çatı, dünyanın ən isti nöqtəsi, dünyanın ən quraq nöqtələrindən biri, ən böyük quraq təbii kompleksi, ən geniş savannası bu materikdədir. Ekvator xətti və sıfırıncı meridian bu materikdən keçdiyinə görə o, 4 yarımkürədə yerləşir.

Bir sıra bu kimi fərqlilikləri və ekzotik cəhətləri ilə diqqət çəkən Afrikada son illərdə Azərbaycana marağın artması səbəbsiz deyil. Burada 2 mühüm amili xüsusi qeyd edə bilərik:

-Birinci amil, heç şübhəsiz ki, Azərbaycanın qısa müstəqillik tarixində keçdiyi inkişaf yolu və qazandığı uğurlarla bağlıdır. Bu gün dünyadakı təlatümlərə, yaşanan siyasi və iqtisadi böhranlara rəğmən, respublikamız sabitlik və inkişaf adası kimi fərqlənir. Hazırda respublikamız iqtisadi müstəqilliyini və bu əsasda siyasi müstəqilliyini tam təmin etmiş azsaylı ölkələr sırasında yer alır. Bu milli model müstəqillik yolunun başlanğıcında olan Afrika dövlətləri üçün çox cəlbedicidir.

-İkinci amil, müstəqil Azərbaycanın müstəmləkəçiliyin bütün təzahürlərinə qarşı apardığı ardıcıl mübarizə ilə Afrika xalqlarının azadlıq istəyinin üst-üstə düşməsi ilə bağlıdır. Afrikada müstəmləkəçiliyin dərin kökləri var. Müstəmləkəçilər burada ən yararlı torpaqları ələ keçiriblər və son dərəcə ağır şərtlər altında sümürmə siyasəti aparırlar.

XX əsrin əvvəlindən etibarən Afrikada milli-azadlıq hərəkatı güclənib. Getdikcə artan soyğunçuluqdan və rəhmsiz istismardan ümidsiz vəziyyətə düşən Afrika xalqları müstəmləkə əsarətindən azad olmağa dəfələrlə cəhd göstərmiş, silahlı mübarizəyə qalxmışlar. İkinci Dünya müharibəsi ərəfəsində qitədə Efiopiya, Misir, Liberiya, CAR olmaqla 4 müstəqil ölkə var idi. Sonradan onların sayı 60-dək artıb.

Hazırda Afrikada müstəmləkəçiliyə qarşı mübarizənin yeni dalğası başlayıb. O cümlədən Azərbaycan qitənin ayrı-ayrı ölkələrində müstəmləkəçilk siyasətinin ifşa olunmasında mühüm rol oynayır və xalqların azadlıq mübarizəsinə dəstək göstərir. Azərbaycanın müstəmləkəçiliyə qarşı mübarizəyə ardıcıl siyasi dəstək verməsi Afrika xalqları tərəfindən minnətdarlıqla qəbul olunur və onlar respublikamızla əməkdaşlıq etməyə böyük maraq göstərirlər.



## Azərbaycan - Efiopiya əlaqələri: Böyük perspektiv vəd edən başlanğıc

Afrikanın şərqində yerləşən Efiopiya insanın meydana gəldiyi ən qədim ərazilərdən sayılır, əsasən aqrar ölkədir. Buradan dünya bazarlarına qəhvə, dəri, xəz, heyvandarlıq məhsulları, toxum yağları ixrac edilir. Ölkənin idxalına isə əsasən neft və maşınqayırma məhsulları, kimyəvi maddələr, dərman preparatları daxildir.

Müstəqil Azərbaycanla Efiopiya arasında siyasi münasibətlərin əsası 2 noyabr 1992-ci il tarixində iki ölkə arasında diplomatik əlaqələrin yaradılması haqqında Protokolun imzalanması ilə qoyulub. Prezident İlham Əliyev 4 fevral 2013-cü il tarixində Azərbaycan Respublikasının Efiopiya Federal Demokratik Respublikasında (Əddis-Əbəbə şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında sərəncam imzalayıb. Azərbaycan Respublikasının Efiopiyadakı səfirliyi 2015-ci ildən fəaliyyət göstərir. Efiopiyanın Türkiyədəki səfirliyi eyni zamanda Azərbaycan Respublikasında akkreditə olunub. 20 dekabr 2017-ci il tarixində Efiopiya Federativ Demokratik Respublikasının Azərbaycan Respublikasındakı Fəxri Konsulluğu fəaliyyətə başlayıb. İki ölkə arasında siyasi məsləhətləşmələr mexanizmi mövcuddur. 2023-cü ildə Bakıda Azərbaycan Xarici İşlər Nazirliyi ilə Efiopiya Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr baş tutub. Milli Məclisdə Azərbaycan-Efiopiya parlamentlərarası işçi qrupu, Efiopiyanın Xalq Nümayəndələri Palatasında (aşağı palata) isə Efiopiya-Azərbaycan dostluq qrupu fəaliyyət göstərir.



İki dost ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı yüksək səviyyədədir. Hər iki ölkə sıralarında 120 dövləti birləşdirən Qoşulmama Hərəkatının (QH) fəal üzvüdür. Qoşulmama Hərəkatının 24-26 oktyabr 2019-cu il tarixlərində Bakı şəhərində keçirilən XVIII Zirvə Görüşündə iştirak etmək üçün Efiopiyanın dövlət naziri Markos Teklenin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Həmçinin Efiopiya Baş nazirinin müavini, xarici işlər naziri Demeke Mekonnen Haasen Bakı şəhərində keçirilmiş Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşündə iştirak edib.

Cəmiyyətlər səviyyəsində yaxınlaşma Azərbaycan-Efiopiya əlaqələrinin genişlənməsinə müsbət təsir göstərir. Burada Heydər Əliyev Fondunun rolunu xüsusi qeyd edə bilərik. Bir qədər bundan əvvəl fondun vitse-prezidenti Leyla Əliyeva dost ölkədə səfərdə olub və önəmli görüşlərə qatılıb. Yeri gəlmişkən, fevralın 27-də Prezident İlham Əliyevlə Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli arasında baş tutan geniş tərkibdə görüşə Leyla Əliyeva da qatılıb. Görüşdə dövlətimizin başçısının vurğu etdiyi kimi, Leyla Əliyeva ilk dəfə idi ki, nümayəndə heyətlərinin görüşündə iştirak edirdi və bu, onun Efiopiyaya, bu ölkənin xalqına olan çox xüsusi münasibəti ilə bağlı idi.

Eyni zamanda, Azərbaycanın intellektual brendi olan "ASAN xidmət" modelinin Efiopiyada tətbiqi də yaxşı nümunədir. Efiopiyada "ASAN xidmət" modeli əsasında yaradılmış "MESOB" dövlət xidməti mərkəzininin rəsmi təqdimatı ötən ilin iyun ayında baş tutub. Əddis-Əbəbə şəhərində yerləşən və 8 mərtəbədən ibarət olan "MESOB" mərkəzində pilot mərhələdə 20-yə yaxın dövlət qurumu və bir sıra özəl təşkilatlar tərəfindən ümumilikdə 120-dən çox xidmət təqdim olunur. Geniş tərkibli görüşdə, eyni zamanda, Efiopiyada "ASAN xidmət" konsepsiyası əsasında mərkəzlərin uğurla fəaliyyət göstərməsi, həmçinin "DOST" təcrübəsinin tətbiqi ilə bağlı müzakirələrin aparıldığı qeyd edilib.

Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin respublikamıza səfəri çərçivəsində yüksək səviyyədə aparılan müzakirələrdə ikitərəfli münasibətlərin perspektivlərinə böyük inam ifadə olunub. Geniş tərkibdə keçirilən görüşdə Baş nazirin səfərinin gələcək uğurlu əməkdaşlıq üçün vacib amil olduğunu və xalqlarımıza çox yaxşı nəticələr verəcəyini bildirən Prezident İlham Əliyev vurğulayıb: "Biz ikitərəfli münasibətlərimizin siyasi və iqtisadi, energetika, kənd təsərrüfatı, mədəniyyət sahələrində gücləndirilməsində çox maraqlıyıq".

Oxşar mövqeni həmçinin Baş nazir Abiy Əhməd Əli də bölüşüb. Azərbaycanla Efiopiya arasında münasibətlərin hazırkı səviyyəsini başlanğıc mərhələ kimi səciyyələndirən Baş nazir vurğulayıb ki, biz bu münasibətlərin strukturlaşmış, əməli və aydın nəticələrə yönəlmiş olmasını istəyirik. "Son bir neçə il ərzində tərəfdaşlığımız durmadan genişlənib, buna aviasiya sektorunda iqtisadi əməkdaşlıq, sənaye parkları və azad ticarət zonalarında əməkdaşlıq, eləcə də Efiopiyanın investisiya holdinqləri ilə Azərbaycan şirkətlərinin birgə layihələri təkan verib. Bu təşəbbüslər ikitərəfli münasibətlərimizin daha da gücləndirilməsinə möhkəm zəmin yaradıb. Bu gün aparılan ətraflı müzakirələr zamanı biz bu əlaqələri daha da möhkəmləndirmək və inkişaf etdirməklə bağlı razılığa gəldik". Bu fikirləri isə Baş nazir "X" hesabında yazıb.

## Bakıda imzalanan önəmli sənədlər

Əməkdaşlığın genişlənməsinə hər iki tərəfin güclü siyasi iradəsinin təsdiqi olaraq Bakıda bir sıra önəmli sənədlər imzalanıb. O cümlədən Prezident İlham Əliyevin və Baş nazir Abiy Əhməd Əlinin iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Efiopiyanın xarici işlər naziri Qedion Timoteos "Azərbaycan Respublikası ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Birləşmiş Millətlər Təşkilatının İqlim Konfransının (COP32) otuz ikinci sessiyasının təşkilində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalyıblar.

Səfər çərçivəsində həmçinin "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Efiopiyanın Federal Etika və Antikorrupsiya Komissiyası arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə Efiopiya İnvestisiya Komissiyası arasında Anlaşma Memorandumu" və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC ilə Efiopiya Yayım Korporasiyası arasında Anlaşma Memorandumu" imzalanıb.

*Mübariz ABDULLAYEV*

# Proseslər dövlətimizin diqqət mərkəzindədir

## Azərbaycan tərəfləri təmkinli olmağa və danışıqlar masasına qayıtmağa çağırıb

Yaxın Şərq regionunda, xüsusilə İranda baş verən hadisələr Azərbaycanın diqqət mərkəzindədir. Regional hərbi eskalasiya ilə bağlı Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib ki, bölgədə və qlobal səviyyədə təhlükəsizlik və sabitlik üçün ciddi təhdid yaradan hərbi eskalasiya dərin narahatlıq doğurur. "Qəti şəkildə, bütün tərəfləri maksimum təmkin nümayiş etdirməyə, gərginliyi daha da artıracaq hərəkətlərdən çəkinməyə və danışıqlar masasına qayıtmağa çağırırıq. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsiplərinə uyğun olaraq bütün dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə hörmət edilməsinin vacibliyini vurğulayırıq", - deyə bəyanatda vurğulanıb.

**Azərbaycan vətəndaşları təxliyə olunur**

Qeyd edək ki, yaranmış gərginlik fonunda XİN fevralın 28-də İsraildə və İranda olan Azərbaycan vətəndaşlarına müraciət etmişdi. Belə ki, İran ətrafında müşahidə olunan mövcud gərginlik fonunda Azərbaycan vətəndaşları İsrailə səfərdən çəkinməyə çağırılıb. Bildirilib ki, hazırda İsraildə olan vətəndaşlarımızdan təhlükəsizlik vəziyyətini diqqətlə izləmələri, yerli hakimiyyət orqanlarının göstəriş və tövsiyələrinə riayət etmələri, kütləvi toplaşma yerlərindən uzaq durmaları və şəxsi təhlükəsizlik tədbirlərini gücləndirmələri xahiş olunub.

Eləcə də, İran İslam Respublikasında təhlükəsizlik vəziyyətinin gərginləşdiyi nəzərə alınaraq, Azərbaycan vətəndaşları İrana səfər etməkdən çəkinməyə, hazırda İran ərazisində olan Azərbaycan vətəndaşlarına isə yerləşdikləri bölgədən asılı olaraq İranı Azərbaycan və ya Türkiyə ərazisindən tərk etməyə çağırılıb. Vətəndaşlarımızdan təhlükəsizlik tədbirlərinə riayət etmələri, kütləvi toplaşma yerlərindən uzaq durmaları, yerli hakimiyyət orqanlarının göstərişlərinə əməl etmələri və rəsmi məlumat mənbələrini mütəmadi izləmələri xahiş olunur. Həmin gündən etibarən İrandan vətəndaşlarımızın təxliyəsinə başlanılıb.



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov regionda vəziyyətlə bağlı bir sıra ölkələrin XİN rəhbərləri ilə telefonla danışıb. C.Bayramovun İranın xarici işlər naziri Seyid Abbas Əraqçi ilə telefon söhbətində İranda hərbi əməliyyatlar və bölgədə hərbi eskalasiya nəticəsində yaranmış vəziyyət müzakirə olunub. İranın xarici işlər naziri cari vəziyyət və atılan addımlar barədə məlumat verib. C.Bayramov bölgədə vəziyyətin faciəvi şəkildə gərginləşməsindən ciddi narahatlıq ifadə edib. İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və günahsız mülki insanların həlak olması ilə bağlı başsağlığını çatdırıb.

**Ceyhun Bayramov həmkarları ilə danışıb**

Hərbi əməliyyatların tezliklə dayandırılacağına, mövcud vəziyyətin yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll olunacağına dair ümid ifadə olunub. Bununla yanaşı, hər hansı bir ölkə tərəfindən Azərbaycan ərazisinin qonşu və dost İrana qarşı istifadə edilməsinin mümkün olmadığı vurğulanıb. Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

C.Bayramov ilə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş nazirinin müavini və xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan arasında da telefon danışığı aparılıb. Söhbət zamanı Yaxın Şərqdə son günlər müşahidə olunan hərbi toqquşmalar və təhlükəsizlik mühitindəki gərginlik əsas müzakirə mövzusu olub. Tərəflər yaranmış vəziyyət ilə bağlı dərin narahatlıqlarını ifadə ediblər. Mövcud hərbi eskalasiyanın regional sabitlik üçün yaratdığı risklər xüsusi qeyd edilərək, beynəlxalq hüququn norma və prinsiplərinə hörmət edilməsinin, münaqişənin dialoq və siyasi vasitələrlə həllinin zəruri olduğu vurğulanıb. Mülki əhalinin və obyektlərin təhlükəsizliyinin təmin edilməsinin prioritet məsələ olduğu bildirilib.

Azərbaycanın XİN başçısı ilə İraq Respublikasının Baş nazirinin müavini və xarici işlər naziri Fuad Hüseynin telefon danışığı zamanı da Yaxın Şərqdə müşahidə olunan hərbi eskalasiya və gərgin təhlükəsizlik vəziyyəti ətrafında fikir mübadiləsi aparılıb. Bütün tərəflərin təmkin nümayiş etdirməsinin, gərginliyi artıracaq addımlardan çəkinilməsinin və mövcud mübahisələrin həlli üçün diplomatik kanallara üstünlük verilməsinin zəruri olduğu vurğulanıb. Nazirlər beynəlxalq ictimaiyyətin koordinasiyalı səylərinin önəmini qeyd edib, mülki əhalinin və infrastrukturun qorunmasının prioritet məsələ olduğunu vurğulayıblar.

C.Bayramovun, həmçinin Oman Sultanlığının xarici işlər naziri Sayid Bədr ibn Həməd ibn Hammud Albusəidi ilə də telefon söhbəti olub. Telefon danışığı zamanı regionda hərbi eskalasiya və artan gərginliklə bağlı fikir mübadiləsi aparılıb. Nazirlər bölgədəki son hərbi eskalasiyadan dərin narahatlıqlarını ifadə edib və vəziyyətin daha da kəskinləşməsinin regional təhlükəsizlik və sabitliyə ciddi təhdid yaratdığını vurğulayıblar. Deskalasiyanın zəruri olduğu və danışıqlar prosesinin bərpa edilməsi istiqamətində diplomatik səylərin artırılmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Azərbaycanın XİN başçısının ispaniyalı, özbəkistanlı və qazaxıstanlı həmkarları ilə telefon danışığında da regiondakı vəziyyət müzakirə olunub.

**Kanada və Rusiya Azərbaycana təşəkkür edib**

Ceyhun Bayramovla Kanadanın xarici işlər naziri Anita Anand arasında telefon danışığında isə bölgəmizdə müşahidə olunan hərbi eskalasiya və artan təhlükəsizlik riskləri ilə bağlı dərin narahatlıq ifadə olunub. Mövcud vəziyyətin daha da gərginləşməsinin qarşısının alınması, diplomatik səylərin artırılması və bu çərçivədə beynəlxalq hüququn norma və prinsiplərinə hörmətin vacibliyi vurğulanıb.

Nazir Anita Anand keçən ilin iyun ayında hərbi eskalasiya zamanı İranda olan Kanada vətəndaşlarının Azərbaycan Respublikasının ərazisindən tranzit keçidinə yaradılmış şəraitə görə Azərbaycan tərəfinə təşəkkürünü ifadə edib. Həmin dövrdə göstərilmiş operativ və humanitar dəstəyin yüksək qiymətləndirildiyi bildirilib. Mövcud təhlükəsizlik şəraiti nəzərə alınaraq, zərurət yarandığı təqdirdə Kanada vətəndaşlarının İrandan təxliyəsi məqsədilə Azərbaycan sərhədindən istifadəsi ilə bağlı mümkün perspektivlər ətrafında fikir mübadiləsi aparılıb.

Rusiyanın Bakıdakı səfirliyi də İrandan Rusiya vətəndaşlarının təxliyəsində göstərdiyi köməyə görə Azərbaycana təşəkkürünü bildirib. Bu barədə diplomatik missiyanın "Telegram" kanalı məlumat yayıb. "Rusiya səfirliyi Astara keçid məntəqəsindən İranı tərk edən Rusiya vətəndaşlarına kömək göstərir. Sərhəd keçid icazələrinin tez bir zamanda işlənməsi də daxil olmaqla, göstərdiyi köməyə görə Azərbaycan tərəfinə minnətdarlığımızı bildirmək istərdik", - deyə məlumatda vurğulanıb. Diplomatik missiya, həmçinin qeyd edib ki, hazırda Azərbaycandan gedənlərin siyahısında təxminən 500 rusiyalı var. Bununla yanaşı, mülki əhalinin və infrastrukturun mühafizəsinin zəruriliyi vurğulanıb.

Qeyd edək ki, ötən gün də Astara keçid məntəqəsi vasitəsilə İrandan Azərbaycan və xarici ölkə vətəndaşlarının keçidi davam edib. Onların arasında Çin, Fransa, Taciksitan və s. ölkənin vətəndaşları var.

*Nardar BAYRAMLI*

# Dövlət quruculuğunda yeni mərhələ

## Rəqəmsal İnkişaf Şurası innovasiya əsaslı iqtisadi modelə keçidi və rəqəmsal suverenliyin möhkəmləndirilməsini təmin edəcək

Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” fərmana və “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında imzaladığı müvafiq sərəncama əsasən, ölkəmizdə rəqəmsal dövlət quruculuğuna dair yeni hədəflər müəyyənləşib.

Fərmana əsasən, rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi, həmçinin bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədilə Rəqəmsal İnkişaf Şurası yaradılıb. Şuranın sədri Birinci vitse-prezident, üzvləri isə dövlət qurumlarının yüksək vəzifəli nümayəndələri təyin edilib.

Rəqəmsal İnkişaf Şurasının fəaliyyətinin təşkili məqsədilə Katibliyin yaradılması da nəzərdə tutulur. Eyni zamanda, nəzərdə tutulmuş vəzifələrin icrası məqsədilə yerli və xarici ekspertləri, mütəxəssisləri, beynəlxalq təşkilatları, elmi müəssisə və təşkilatları cəlb edə, habelə aidiyyəti dövlət orqanlarının və digər maraqlı tərəflərin nümayəndələrindən ibarət ayrı-ayrı istiqamətlər üzrə işçi qruplar yarada bilər.

Şuranın əsas məqsədi rəqəmsal inkişaf sahəsi üzrə dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və dövlət orqanları arasında siyasətin əlaqələndirilməsini təmin etməkdən ibarət olacaq. Həmçinin, dövlət qurumları tərəfindən icra olunan layihələrin bu sahədə mövcud strateji məqsədlərə uyğunluğunun təmin edilməsinə nəzarət həyata keçiriləcək.

Yeni imzalanan mühüm sənədlər rəqəmsal dövlət quruculuğu prosesində yeni mərhələnin başlanması kimi səciyyələndirilə bilər. Xüsusilə də rəqəmsal inkişafın sürətləndirilməsinə dair 3 illik Fəaliyyət Planı ölkə iqtisadiyyatında müasir texnologiyaların tətbiqinin və yerli istehsal potensialının genişləndirilməsi, habelə dövlət idarəetməsinin və infrastrukturun yüksək səviyyədə rəqəmsallaşdırılması əsasında dayanıqlı, rəqabətqabiliyyətli inkişafın təmin edilməsi üçün yeni hüquqi-iqtisadi arxitektura deməkdir. Sənəd rəqəmsal texnologiyaların müasir iqtisadi artımın əsas hərəkətverici qüvvəsinə çevrildiyi və qlobal rəqabətin kəskinləşdiyi bir dövrdə olduqca vacib hədəf konsepti kimi qiymətləndirilə bilər.



### Rəqəmsal infrastruktur qurulub, stimullaşdırıcı addımlar atılıb

Məlumdur ki, son illərdə ölkəmizdə innovasiya infrastrukturunun yaradılması, texnoparkların inkişafı, innovativ layihələr üçün maliyyə mexanizmlərinin əlçatanlığının artırılması, İKT sahəsində insan kapitalının yetişdirilməsi sahələrində elektron intibaha keçid sahəsində iradəli addımlar atılır, möhkəm rəqəmsal infrastruktur qurulmaqdadır. Respublikamızda genişzolaqlı internetin inkişaf etdirilməsi və ölkənin ən ucqar yaşayış nöqtələrində yaşayan əhalinin yüksəksürətli internetə çıxışının təmin olunması məqsədilə təsdiq edilmiş “Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi” çərçivəsində müəyyən edilmiş hədəflərə nail olunub. Son 4 il ərzində ölkədə orta internet sürəti 7 dəfə artaraq 12.81 Mbit/saniyədən 90 Mbit/saniyəyədək yüksəlib. “Onlayn Azərbaycan” layihəsinin icrası sayəsində müasir IMS platforması ilə işləyən GPON avadanlığı və optik infrastruktur qurulub. Ölkə ərazisinin fiber-optik şəbəkə ilə geniş əhatə olunması tam başa çatdırılıb. Yüksək standartlara cavab verən “Hökumət buludu” istifadəyə verilib və son 4 il ərzində data mərkəzinə keçid edən qurumların sayı 3 dəfə artaraq 148-ə çatıb. Hazırda mövcud data mərkəzlərindən gücü 3 dəfə artıq olan yeni data mərkəzlərinin inşası davam etdirilir. Biometrik rəqəmsal imzanın (SİMA) uğurlu tətbiqi isə onlayn identifikasiyanı sadələşdirərək, dövlət və özəl sektor xidmətlərinin məsafədən göstərilməsini təmin edib. Habelə “Mygov” platforması yenidən qurularaq 2,5 milyondan artıq vətəndaşa xidmət göstərir. Hazırda sənədlərin fiziki təqdim edilməsinə ehtiyac aradan qaldırılaraq 2,3 milyondan artıq rəqəmsal sənəd “Mygov” platforması vasitəsilə təqdim edilməkdədir.

Yeni qurulan “Mygov Biznes” platforması isə biznes subyektləri tərəfindən bütün xidmətlərin “bir pəncərə” prinsipi əsasında əldə olunmasına və tam rəqəmsal formada istifadəyə şərait yaradacaq.

Ölkəmizin innovasiya ekosisteminin inkişafı ilə bağlı da güclü infrastruktur qurulub, biznes üçün bir sıra güzəştlər edilib. Vergi və Miqrasiya məcəllələrində, “Gömrük tarifi haqqında” və “Sosial sığorta haqqında” qanunlarda edilmiş dəyişikliklərə əsasən, texnologiyalar parkının rezidentləri vergi, gömrük və sosial güzəştlərlə əhatə olunublar.

### Azərbaycan yeni rəqəmsal kəşflərlə qlobal bazarlara daxil olmağı hədəfləyir

Göründüyü kimi, mövcud vəziyyət hökuməti qane edə bilməz və texnoloji rəqabətdə daha ambisiyalı hədəflər var. Eyni zamanda, qlobal texnoloji landşaft yüksək sürətlə dəyişir və bu prosesdə rəqabət üstünlüyü əldə etmək üçün yeni modellərə keçid tezləşməlidir. Məhz bu nöqteyi-nəzərdən Azərbaycan rəqəmsal arxitekturanı möhkəmləndirməklə yeni biznes ideyaları, rəqəmsal kəşf və bacarıqların artırılması yolu ilə artıq qlobal bazarlara daxil olmağı hədəfləyir. Fəaliyyət Planı qeyd edilən prioritetlərə nail olmaq üçün strateji yol xəritəsi hesab edilə bilər.

Rəqəmsal inkişaf üzrə yeni dövlət sənədi rəqəmsal inkişaf sahəsində mövcud vəziyyətə və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planı vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olmağı hədəfləyir. Fəaliyyət Planı üzrə həyata keçiriləcək tədbirlər çərçivəsində “vahid məlumat idarəçiliyi” yanaşmasının tətbiqi, məlumatların dövlət orqanları tərəfindən alınmasında “yalnız bir dəfə” prinsipinin həlli, proaktiv dövlət xidmətlərinə keçid və bütün dövlət xidmətlərinin “Mygov” və “Mygov Biznes” platformaları vasitəsilə göstərilməsi, vençur maliyyələşməsi və kraudfandinq münasibətlərinin hüquqi tənzimlənməsi, “mələk investorlar” institutunun təşviqi və tətbiqi nəzərdə tutulur. Bundan başqa, texnoparklarda rezidentlik şərtlərinin sadələşdirilməsi və yerli innovativ məhsulların dövlət satınalmalarında dəstəklənməsi, qlobal istedadları cəlb etmək üçün “rəqəmsal səyyah” vizasının tətbiqi, müstəqil mütəxəssislərin hüquqi statusunun müəyyən edilməsi, miqrasiya prosedurlarının sadələşdirilməsi, İKT, süni intellekt və informasiya təhlükəsizliyi üzrə mütəxəssislərin bilik və bacarıqlarının artırılması, dövlət informasiya ehtiyatlarının və sistemlərinin “Hökumət buludu”na tam miqrasiyası, maliyyə xidmətlərinin rəqəmsallaşması, elektron ticarət və informasiya təhlükəsizliyi sahələri üzrə normativ hüquqi aktların tamamilə yenilənməsi əsas məqsədlərdəndir.

### Uğurlar çoxdur, ancaq hökumət rəqəmsal inkişafı qaneedici hesab etmir

Bütün bu uğuralara baxmayaraq, ölkənin rəqəmsal inkişafına mənfi təsir edən hallar da mövcuddur. Belə ki, innovasiya ekosisteminin zəifliyi, maliyyələşdirmə mexanizmlərinin çatışmazlığı, rəqəmsal idarəetmədəki boşluqlar, süni intellektin inkişafı üçün maneələr, kibertəhlükəsizlik riskləri, insan kapitalının və tənzimləyici mühitin yetərsizliyi mənfi təsir göstərən əsas amillərdəndir. Azərbaycanda İKT xidmətlərinin ixracı təxminən 110 milyon dollar təşkil edir. Müqayisə üçün Qazaxıstanda bu rəqəm 882 milyon, Özbəkistanda isə 620 milyon dollardır. Qlobal İnnovasiya İndeksində Azərbaycan Respublikasının 139 ölkə arasında 94-cü yerdə qərarlaşması ekosistemin kompleks inkişafa ehtiyacı olduğunu göstərir. İndeksin göstəricilərinin yalnız 15 faizinin birbaşa İKT-yə aid olması, problemin, əsasən, institusional mühit, insan kapitalı və maliyyələşmə ilə bağlı olduğu göstərilir. Vençur kapitalı, “mələk investorlar” kimi alternativ maliyyələşdirmə alətlərini dəstəkləyən normativ hüquqi bazanın olmaması innovativ layihələrin maliyyə resurslarına çıxışını məhdudlaşdırır.

Makroiqtisadi siyasətdə mövcud konservativ yanaşmalar innovasiyanı stimullaşdıran çevik tənzimləmələrin formalaşmasına maneə hesab edilir. Dövlət informasiya ehtiyatlarında və sistemlərində məlumatların dürüstlüyündə və tamlığında olan problemlər məlumat əsaslı qərarverməni məhdudlaşdırır və rəqəmsal 7 xidmətlərin proaktiv təqdim edilməsinə imkan vermir. “Hökumət buludu”na keçidin tam başa çatmaması və EHİS-dən kənar xidmətlərin mövcudluğu təhlükəsizlik riskləri yaradır, resursların səmərəsiz istifadəsinə səbəb olur. Eləcə də, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyasının mövcudluğuna baxmayaraq, sahə üzrə risklərin qeydiyyatı aparılmamış, təhdid landşaftı və kateqoriyaları müəyyənləşdirilməyib. Ölkə səviyyəsində diaqnostikanın aparılmaması və fövqəladə hallar zamanı tətbiq olunmalı proseslərin müəyyən edilməməsi milli rəqəmsal dayanıqlılığı zəiflədir. Yüksək ixtisaslı texnoloji kadrların çatışmazlığı və beyin axını riski vardır. Mövcud miqrasiya tələbləri xarici mütəxəssislərin və “rəqəmsal səyyah”ların ölkəyə cəlb edilməsini çətinləşdirir.

### Hədəf rəqəmsal məhsul və xidmətlərin illik ixracının yüksəldilməsidir

Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi dövlət büdcəsi və qanunla nəzərdə tutulan digər mənbələr hesabına təmin ediləcək. Bu, o deməkdir ki, dövlət büdcəsindən investisiyalarla yanaşı, özəl sektorun, xarici investorların və maliyyə institutlarının vəsaitlərinin cəlb edilməsi nəzərdə tutulur.

Fəaliyyət Planı üzrə nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsi və icrasına nəzarəti yeni yaradılan Rəqəmsal İnkişaf Şurası həyata keçirəcək.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və səhmləri dövlətə məxsus olan hüquqi şəxslər, habelə dövlət adından yaradılan publik hüquqi şəxslər və digər büdcə təşkilatları, eləcə də Ali Məhkəmə, Baş Prokurorluq, Mərkəzi Bank, İnsan hüquqları üzrə Müvəkkil, Hesablama Palatası, Məhkəmə-Hüquq Şurası və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam icrasını təmin etməli olacaq.

Fəaliyyət Planının uğurlu icrası nəticəsində Azərbaycan Respublikasının beynəlxalq reytinqlərdə mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması hədəflənir. Növbəti 10 ildə İKT sektorunun qeyri-neft-qaz ÜDM-də payının, rəqəmsal məhsul və xidmətlərin illik ixracının yüksəldilməsi, proaktiv xidmətlərin payının 50 faizə çatdırılması və ölkənin innovasiya əsaslı, rəqabətqabiliyyətli iqtisadiyyata keçidinin sürətləndirilməsi təmin ediləcək.

*E.CƏFƏRLİ*

# Avropa Bankından nikbin proqnoz

## Azərbaycanda iqtisadi artım davamlı olacaq

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) “Regional iqtisadi perspektivlər” adlı fevral hesabatını ictimaiyyətə açıqlayıb. Sənəddə qlobal iqtisadiyyatın mövcud vəziyyəti və qarşıdakı dövr üzrə proqnozlar yer alıb. AYİB-in ekspert icması hesab edir ki, ABŞ-ın bir müddət əvvəl tətbiq etdiyi idxal tarifləri dünya miqyasında potensial itkilər yaratmaqla, qlobal əlavə dəyəri azaldacaq. Xüsusilə də Avropa regionunda iqtisadiyyatın artım tempinin azalması gözlənilir, ümumi təsir isə bu regionda ÜDM-in 0,4 faizi həddində ehtimal olunur. ABŞ-ın gömrük proteksionizmi üzrə qiymətləndirmələr qlobal təchizat zəncirlərinə dolayı təsirlər göstərəcək və ticarət axınlarını dəyişikliyə uğradacaq. ABŞ-da iqtisadi artımın 2026-cı ildə 2,4 faiz olacağı fərz edilir.

AYİB-in ehtimallarına görə, Avropa və Asiya bölgəsində artım 2025-ci ildə 1,6 faiz yavaşlayıb və bu proses 2026-cı ildə davam edəcək. Avrozona iqtisadiyyatında artımın cəmi 1,3 faiz olacağı fərz olunur. Qlobal inflyasiya proqnozu da ötənilki səviyyədə qalacaq. Tələbin azalması və enerji qiymətlərinin aşağı düşməsi kimi ümumi meyillər üzrə də gözləntilər qlobal inflyasiyanın 3,8-4 faiz təşkil edəcəyini əsaslandırır.

**İnflyasiya hədəf diapazonu daxilində qalıb**

Avropa Bankının Azərbaycan iqtisadiyyatı ilə bağlı gözləntiləri isə ümidvericidir. Bankın analitik blokunun qənaətinə görə, güclü dövlət investisiyaları və əhalinin real gəlirlərinin artması 2025-ci ildə Azərbaycanın qeyri-neft ÜDM-nin da-




vamlı artımını dəstəkləyib, neft-qaz sektoru isə Avropa bazarında tələbatın artmasından faydalanıb. Kreditləşmənin artımı daha da sürətlənərək 20 faizi ötüb, həm korporativ, həm də pərakəndə kreditləşmə yaxşı nəticələr göstərib. Sərmayələrin davamlı artımı və maliyyə axınları hesabında iqtisadiyyatda əlavə dəyərin həcminin böyüməsi istisna olunmur.

AYİB-in ssenarilərinə əsasən, ölkəmizdə iqtisadi artım 2026-cı ildə 2 faiz, 2027-ci ildə 2,5 faiz proqnozlaşdırılır. Bankın analitiklərinin fikrincə, proqnoz enerji daşıyıcılarının qiymətləri və hasilat həcmlərinin dinamikasına qarşı həssas olaraq qalır. Potensial dəstəkləyici amillər sırasında ABŞ-ın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında sülh sazişi çərçivəsində regional əlaqələndirmə və ticarət təşəbbüslərinin inkişafı, eləcə də iqtisadiyyatın şaxələndirilməsinə töhfə verə biləcək bərpaolunan enerji mənbələrinə irimiqyaslı investisiyaların davam etdirilməsi göstərilib. Qiymətləndirmələrə görə, 2025-ci ildə inflyasiya artsa da, Mərkəzi Bankın (MB) hədəf diapazonu (4 % ±2 faiz bəndi) daxilində qalıb. MB uçot dərəcəsini iki dəfə - 2025-ci ilin iyul və dekabr aylarında 25 baza bəndi endirib. Bundan əlavə, 2026-cı il fevralın 4-də tənzimləyici dərəcəni yenidən 0,25 faiz bəndi azaldaraq 6,5 faizə endirib.

**Bölgədə yeni ticarət marşrutlarının açılması iqtisadi fəallığı yüksəldəcək**

Dəyərləndirmələrə əsasən, Azərbaycanın fiskal və xarici mövqeləri də dayanıqlı olaraq qalır. 2025-ci ildə dövlət büdcəsinin profisiti ÜDM-in 0,4 faizini, sentyabr ayına olan məlumata görə isə dövlət borcu ÜDM-in təxminən 20 faizini təşkil edib.

Enerji daşıyıcılarından ixrac gəlirlərinin azalması və idxalın artması fonunda 2025-ci ilin ilk üç rübündə xarici ticarətin müsbət saldosu azalıb. Dövlət Neft Fondunun (DNF) aktivləri və AMB-nin valyuta ehtiyatları daxil olmaqla, beynəlxalq ehtiyatlar 2025-ci ilin dekabrına 85,1 milyard dollara çatıb ki, bu da ÜDM-in 112 faizinə bərabərdir.

Ehtimallara əsasən, enerji qiymətlərindəki dəyişkənlik, qlobal ticarətdəki qeyri-müəyyənlik və regional geosiyasət iqtisadi artımda yavaşlama riskləri yaradır. Ancaq neftdənkənar bölmələrdə artıq dayanıqlılıq və möhkəm sütunların yaranması ÜDM-in artım potensialını böyüdür. Bundan başqa, Aİ ilə enerji sahəsində əməkdaşlıq, Orta Dəhlizin genişləndirilməsi, Ermənistanla sülh gündəliyi ilə bağlı situasiyalar da ölkəmizdə əlavə dəyərin artımında təsiriedici faktorlardan olacaq. Növbəti illərdə bölgədə yeni ticarət marşrutlarının açılması isə investorların etimadını artırmaqla bölgəyə gəlişi və yeni sərmayələrə start verməsi iqtisadi və işgüzar fəallığı yüksəldəcək, yeni əlavə dəyər mənbələri formalaşdıracaq.

**Su və nəqliyyat infrastrukturunun yenidən qurulmasına AYİB-dən dəstək**

Yeri gəlmişkən, Avropa Bankı “Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramı” və “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”nın icrasında da maliyyə donoru olmaq niyyətindədir. Maliyyə Nazirliyində olan AYİB-in Azərbaycandakı Daimi Nümayəndəliyinin rəhbəri Natali Mouravidzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə su və şəhər infrastrukturu sahələrində prioritet istiqamətlərdə gələcək əməkdaşlıq məsələləri müzakirə edilib.Nazir müavini Anar Kərimov bildirib ki, Avropa Bankı özəl sektorun dəstəklənməsi, şəhər infrastrukturunun gücləndirilməsi, ətraf mühitin davamlılığının təmin edilməsi və kommunal xidmətlərin keyfiyyətinin artırılması istiqamətində Azərbaycanın əsas tərəfdaşlarındandır. İcra edilən layihələr strateji əhəmiyyət daşıyımaqla, fiskal dayanıqlılıq və effektiv maliyyələşmə prinsipləri nəzərə alınmaqla həyata keçirilib. Bankla əməkdaşlıq çərçivəsində Gəncə və Şəki şəhərlərində həyata keçirilən layihələr yalnız şəhər infrastrukturunun modernləşdirilməsi və əhalinin keyfiyyətli su təminatını təmin etmək baxımından deyil, həm də şəhərlərdə ekoloji standartların yüksəldilməsi, kommunal xidmətlərin səmərəliliyinin artırılması baxımından böyük əhəmiyyət daşıyır.

N.Mouravidze bildirib ki, bank üçün əsas prioritetlərdən birinin su və şəhər infrastrukturu sahələrində layihələrin icrasının sürətləndirilməsi, eləcə də növbəti mərhələlər üzrə maliyyələşmənin səmərəli və məqsədyönlü çərçivədə strukturlaşdırılmasıdır. Eyni zamanda AYİB “yaşıl keçid”, iqlim maliyyələşməsi və texniki dəstək mexanizmlərinin genişləndirilməsi istiqamətlərində əməkdaşlığın davam etdirilməsində maraqlıdır.

*E.CƏFƏRLİ*

# Yaxın Şərqdə hərbi eskalasiya...

## Xamenei və varisi öldürüldü - yeni hakimiyyət danışıqlardan imtina edir

Fevralın 28-də ABŞ və İsrail İran İslam Respublikasına qarşı hərbi əməliyyatlara başlayıb. Xüsusilə hava hücumu müstəvisində başlanan döyüşlər rəsmi Təl-Əviv tərəfindən "Şir nərəsi" adlandırılıb. Qeyd edək ki, əməliyyat başlanan anda ABŞ Prezidenti Donald Tramp bildirmişdi ki, İranın raket sənayesini və donanmasını məhv edəcəyik. "47 ildir "Amerikaya ölüm olsun" şüarları səsləndirirlər. İran İraqdan Livana qədər terrorçuları dəstəkləyir. İran dünyana bir nömrəli terror dövlətidir. Bu rejim heç vaxt nüvə silahına sahib ola bilməz. Buna görə də ötən ilin iyununda rejimin nüvə obyektlərini darmadağın etdik. Bundan sonra onlara xəbərdarlıq etdik ki öz şər əməllərindən çəkinsinlər. Amma İran onilliklərlə olduğu kimi, yenə də öz nüvə ambisiyalarından imtina etməyib və biz artıq buna dözə bilmərik. Fikirləşin ki, bu rejimin nüvə silahı olsa, onlar özlərini necə güclü hiss edərlər", - Tramp qeyd edib.

strateji obyektlərə də zərbələr endirib. İranın "Fars" agentliyinin yaydığı xəbərə görə, partlayış səsləri Ərbil hava limanı yaxınlığında yerləşən ABŞ-ın "Əl-Hərir" hərbi bazası ətrafında eşidilib. Mənbələr bildirir ki, həmin obyektdə ABŞ ordusunun xüsusi təyinatlı qüvvələri dislokasiya olunub.

**İranın itkiləri...**

ABŞ və İsrailin hücumu nəticəsində İranın bir sıra hakimiyyət nümayəndələri, eləcə də ölkənin ali lideri Əli Xamenei öldürülüb. Məlumatda hücumun şənbə gününün səhər saatlarında baş verdiyi qeyd olunub. Bildirilir ki, Xamenei hadisə zamanı rəsmi vəzifələrini icra edirmiş. Qeyd olunur ki, Xameneinin ailəsindən daha 4 nəfər öldürülüb. SEPAH Xameneinin ölümü ilə bağlı rəsmi bəyanat yayıb. Qeyd edək ki, İranda 40 günlük matəm elan edilib, 7 günlük tətil qərarı verilib.

İranın öldürülən yüksək vəzifəli şəxslərinin adlarını əks etdirən siyahı da yayılıb. Bildirilir ki, rəhbəri vəzifəsinin müvəqqəti icrası ayətullah Əlirza Ərafiyə həvalə olunmuşdu. 67 yaşlı Əlirza Ərafi müəyyən bir müddət ərzində İranın ən yüksək dini və siyasi lideri səlahiyyətlərini yerinə yetirməli idi. O, İranın nüfuzlu şiə ayətullahlarından biri hesab olunurdu və uzun müddət idi ki, ölkənin dini iyerarxiyasında mühüm vəzifələr tuturdu. Yayılan məlumatlara görə, yeni Ali dini lider Ayətullah Ərafi də öldürülüb. Bu barədə İsrail baş nazirinin keçmiş sözçüsü David Keyes "X" hesabında paylaşım edib. Məlumat İran Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda da təsdiqlənib - açıqlamada bildirilib ki, ötən gün ali dini lider vəzifəsinə təyin olunan Ayətullah Əlirza Ərafi də öldürülüb.

Bu arada İran Prezidenti Məsud Pezeşkian dövlət televiziyası vasitəsilə xalqa müraciət edib və xalqı ölkədə sabitliyi və birliyi qorumağa çağırıb. O vurğulayıb ki, hazırkı həssas mərhələdə daxili həmrəylik əsas şərtdir və düşmən qüvvələrin məqsədi İran

ni zamanda, Təl-Əviv də gecə saatlarında raket hücumuna məruz qalıb, şəhər üzərində ard-arda partlayış səsləri eşidilib və hava hücumundan müdafiə sistemləri işə düşüb. Təl-Əviv yaxınlığında yerləşən Kiryyat-Ono bölgəsində gecə saatlarında hava hücumundan müdafiə sistemi tərəfindən vurulan raketin qalıqları yaşayış massivinə düşüb.

Eləcə də, sosial şəbəkələrdə yayılan görüntülərdə İran tərəfindən atılan raketlərin Qüds şəhərində ciddi dağıntılara səbəb olduğu əks olunub. Kadrlarda Qüds səmasında ard-arda partlayışlar, havada ələkeçirmə cəhdləri və bəzi raketlərin şəhər ərazisinə düşməsi göstərilir.

**Müharibə genişlənir?**

Müharibənin miqyası isə genişlənə bilər. Belə ki, bəzi Avropa ölkələrinin müharibəyə qoşulması ehtimalı da yaranıb. Bu, İranın Kiprdə yerləşən Britaniya hərbi bazalarına iki raket atdığı barədə məlumatın yayılmasından sonra ehtimal kimi irəli sürülüb. Britaniyanın müdafiə naziri Con

zərbələri qınayıb və tərəfləri təcili şəkildə gərginliyi azaltmağa çağırıb. BMT rəhbəri bildirib ki, tərəflər, o cümlədən İranın nüvə proqramı ilə bağlı məsələlər üzrə danışıqlar masasına geri qayıtmalıdır. Onun sözlərinə görə, Yaxın Şərqdə hərbi eskalasiya beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid yaradır. Quterreş vurğulayıb ki, bölgədə vəziyyətin nəzarətdən çıxması daha genişmiqyaslı qarşıdurmaya səbəb ola və bu, qlobal təhlükəsizlik arxitekturasına ağır zərbə vura bilər. BMT Baş katibi bütün tərəfləri maksimum təmkin nümayiş etdirməyə və diplomatik həll yollarına üstünlük verməyə çağırıb.

**Prezident başsağlığı verdi...**

Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana başsağlığı verib. Başsağlığında bildirilir ki, "İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin faciəvi vəfatı xəbəri bizi dərindən kədərləndirdi. Bu ağır itki ilə əla-





**İran qabaqlayıcı tədbirlərə başladı**

Hücumun ilk saatlarında İranın mülki itkiləri həddindən artıq çox olub. Xüsusilə Hörmüzqan əyalətində ibtidai məktəbin bombalanması nəticəsində 160-dan artıq şagirdin öldüyü bildirilib - məlumatı İran XİN yayıb. Rəsmi Tehran isə qabaqlayıcı tədbirlərə əl atıb. SEPAH-ın yaydığı açıqlamada bildirilib ki, İsrailə qarşı dağıdıcı zərbələrə başlanılıb. Eləcə də İran qlobal neft təddarükünün təxminən 20 faizinin keçdiyi Hörmüz boğazını bağlayıb, hücumların ilk günündə Yaxın Şərqdə 14 ABŞ bazasına zərbələr endirib. Zərbələr nəticəsində mülki binalar da zədələnib. Belə ki, Bəhreynin paytaxtında çoxmərtəbəli yaşayış binasına İran pilotsuz uçuş aparatının zərbəsi qeydə alınıb. "Caucasian Bureau" teleqram kanalı isə İran dronunun Küveyt Beynəlxalq Hava Limanına zərbə endirdiyini bildirib. Məlumata görə, hücum nəticəsində azı 12 nəfər xəsarət alıb. Bundan başqa, Pentaqonun Qətərdəki 1,1 milyard dollarlıq ballistik raket aşkarlama radarı da məhv edilib. SEPAH-ın məlumatına görə, obyekt tamamilə sıradan çıxarılıb. Bu tip radar ballistik raketləri aşkarlamaq üçün istifadə olunur və onun bildirilən mənzili 5000 km-ə qədərdir.

SEPAH həmçinin bəyan edib ki, Bəhreyndə Amerika Birləşmiş Ştatları hərbçilərinin yerləşdiyi əraziyə iki raket zərbəsi endirilib. Qurumun açıqlamasında hücum nəticəsində ümumilikdə, təxminən, 560 amerikalının həlak olduğu və yaralandığı iddia edilib.

Bundan başqa Dubayda beynəlxalq hava limanı istiqamətində pilotsuz uçuş aparatının zərbəsi qeydə alınıb. İran Silahlı Qüvvələri İraq Kürdüstanındakı

hücumlar nəticəsində ali dini lider Əli Xamenei, SEPAH komandanı Məhəmməd Pəkpur, İran Ali Milli Təhlükəsizlik Şurasının keçmiş katibi Əli Şamxani, İranın müdafiə naziri Əziz Nəsirzadə, ali rəhbərin hərbi nümayəndəsi Əli Şirazi öldürülüb.

İran mediası hücumlar nəticəsində həyatını itirən komandanlıq nümayəndələrinin adlarını açıqlayıb. "Tasnim News Agency"nin yaydığı siyahıda:

- General-mayor Məhəmməd Şirazi - Ali Baş Komandanın Baş Qərargah rəisi
- General-mayor Saleh Əsədi - Silahlı Qüvvələrin Baş Qərargahı, kəşfiyyat üzrə rəis müavini
- General-mayor, pilot Möhsin Dərre Bağı - Silahlı Qüvvələrin hazırlıq və dəstək üzrə rəis müavini
- General-mayor Əkbər İbrahimzadə - Ali Baş Komandanın Baş Qərargah rəis müavini
- General-mayor Qulamrza Rəzəiyan - FARAJA Kəşfiyyat Təşkilatının rəhbəri
- General-mayor Bəhram Hüseyni Mütləq - Baş Qərargahın Plan və Əməliyyatlar İdarəsinin rəisi
- General-mayor Həsənəli Tacik - Baş Qərargahın Hazırlıq İdarəsinin rəisinin adları var.

Ən son məlumata görə, SEPAH-a rəhbərlik edən briqada generalı Bəhmən Behmərdin də hava hücumu zamanı həyatını itirib. Məlumatlarda bildirilir ki, general Sanandacda yerləşən yeraltı komanda məntəqəsində olduğu vaxt hücuma məruz qalıb. Hadisə zamanı onunla birlikdə bir neçə hərbi nümayəndənin də öldüyü qeyd edilir. Xəbəri rəsmi qurumlar tam təsdiqləməyib.

**Yeni dini lider də öldürüldü...**

İranın dövlət xəbər agentliyi ISNA-nın yaydığı məlumata görə, ayətullah Əli Xameneyinin ölümündən sonra ölkənin ali dini

cəmiyyətində parçalanma yaratmaqdır. Prezidentin sözlərinə görə, milli birlik qorunduğu halda xarici təzyiqlər nəticəsiz qalacaq.

**ABŞ-ın gəmisinə hücum...**

Qeyd edək ki, hücumlar martın 1-də və 2-də də davam edib. Belə ki, gecə saatlarında ABŞ Hərbi Hava Qüvvələrinin 4 "B-2A Spirit" strateji bombardmançısı İranın müxtəlif hədəflərinə zərbə endirib. Bunun qarşılığında isə SEPAH ABŞ-ın "Abraham Linkoln" gəmisinə raket zərbəsi endirib. Bu barədə SEPAH-ın yaydığı məlumatda deyilir. Məlumatda bildirilir ki, hücum ballistik raketlərlə həyata keçirilib və ümumilikdə 4 raket buraxılıb. "ABŞ-ın "Abraham Linkoln" təyyarədaşıyan gəmisinə dörd ballistik raketlə hücum edilib".

Hücumların ilk tsiklindən sonra açıqlama verən İsrailin Baş naziri Binyamin Netanyahu bildirib ki, qüvvələrimiz hazırda Tehranın mərkəzinə getdikcə daha intensiv zərbələr endirir və bu, qarşıdakı günlərdə daha da güclənəcək. ABŞ Prezidenti Donald Tramp Vaşinqtonun əldə etdiyi nəticələri "inanılmaz uğur" kimi qiymətləndirib və bir zərbə nəticəsində 48 yüksək vəzifəli şəxsin məhv edildiyini söyləyib. Vurğulayaq ki, İsrailin "Yedioth Ahronoth" nəşri Vaşinqtonun vasitəçi üzərindən Tehrana atəşkəs təklif etdiyini, lakin İranın bu təşəbbüsü rədd etdiyini bildirib. Məlumata görə, təklif artan hərbi gərginlik fonunda irəli sürülüb. Tehran tərəfinin imtina səbəbləri barədə rəsmi açıqlama verilməyib.

**İran cavab verdi...**

İran da İsrailə qarşı raket hücumuna cavab verib. Ötən günlər ərzində İsrailin şimalında yerləşən Hayfa şəhəri İran tərəfindən raket hücumuna məruz qalıb. Ey-

Hili bildirib ki, "Biz inanmaq istərdik ki, onlar (raketlər) bizim bazalarımıza yönəlməyib". ABŞ-ın "Fox News" telekanalı isə bildirib ki, yaxın vaxtlarda daha üç ölkə İrana qarşı zərbələr endirməyə hazırlaşır. Hazırda həmin ölkələrin hərbi hava qüvvələri ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığı ilə birgə koordinasiya aparır.

Eyni zamanda, Livan Hizbullahı da İsrailə qarşı aktiv əməliyyatlara başlayıb və Hayfa limanına raket zərbələri endirib. Məlumata görə, Livan ərazisindən İsrail istiqamətində ümumilikdə 6 raket atılıb. Bununla İraq Hizbullahı da əməliyyatlara qoşularaq İsrailə zərbələr endirib və eyni zamanda ABŞ-ın bölgədə yerləşən hərbi bazalarını hədəfə alıb.

**Rəqəmlərdə ziddiyyət**

SEPAH Bəhreyn və digər regional bazalara edilən hücumlarda 560-dan çox ABŞ hərbçisinin öldüyü və yaralandığı barədə məlumat yayıb. Bundan başqa Birləşmiş Ərəb Əmirliyinə (BƏƏ) endirilən raket zərbəsi nəticəsində ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ/CIA) 6 yüksək rütbəli zabitinin məhv edildiyi də bildirilib. SEPAH-ın rəsmi bəyanatında dəniz əməliyyatlarına da toxunulub: "Fars körfəzi və Hörmüz boğazı sularında ABŞ və Böyük Britaniyaya məxsus 3 neft tankerinə raket zərbələri endirilib".

ABŞ tərəfi bu rəqəmləri hələlik təsdiqləməyib. ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığı (CENTCOM) daha əvvəl yaydığı məlumatda hücumlar nəticəsində cəmi 3 amerikalı hərbçinin həlak olduğunu, 5 nəfərin isə yaralandığını bildirib.

**Quterreşdən çağırış**

Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş ABŞ və İsrailin İrana endirdiyi

qədar Sizə, mərhumun ailəsinə və dost İran xalqına dərin hüznlə başsağlığımızı ifadə edir, səbir və dözüm arzulayırıq. Ayətullah Seyid Əli Xamenei uzun illər ərzində İran dövlətinin və cəmiyyətinin həyatında mühüm rol oynamış, ölkəsinin siyasi və dini həyatında xüsusi yer tutmuş şəxsiyyət olmuşdur. Onun vəfatı İran üçün böyük itkidir. Bu çətin gündə dost və qardaş İran xalqına sülh, sabitlik və əmin-amanlıq arzulayırıq".

**Səfir təşəkkür etdi...**

Bu arada İran İslam Respublikasının ölkəmizdəki səfiri Müctəba Dəmirçilu İranın Azərbaycandakı səfirliyində keçirilən mətbuat konfransında Azərbaycan dövlətinə və xalqına minnətdarlığını bildirib: "Azərbaycan bu çətin dövrdə həm rəsmi, həm də qeyri-rəsmi başsağlığı mesajları ilə həmrəylik nümayiş etdirib və öz dəstəyini ifadə edib. Bu, ortaq mədəniyyətimizin və münasibətlərimizin bir göstəricisidir və buna görə təşəkkürümüzü bildiririk. Mediada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana başsağlığı verdiyini görmüşük.

Həmçinin xarici işlər nazirləri arasında da telefon danışığı olub. Ceyhun Bayramov və Seyid Abbas Əraqçi son proseslərlə bağlı fikir mübadiləsi aparıblar. Həmin telefon danışığında Azərbaycanın rəsmi mövqeyi ifadə edilib və qeyd olunub ki, Azərbaycan heç vaxt öz ərazisindən İrana qarşı hər hansı təhdidə yol verməyəcək. Biz hər zaman buna inanmışıq. Azərbaycanın ən yüksəksəviyyəli rəsmiləri də bu mövqeni açıq şəkildə bəyan ediblər".

*P.İSMAYILOV*

# Pakistan terrorçuları məhv edir...

## Taliban isə gərginliyi artırır

Aylardır davam edən Əfqanıstan-Pakistan qarşıdurmaları ötən həftənin sonlarından etibarən daha sərt tona qədəm qoyub. Qeyd edək ki, son 1 ay ərzində Pakistanda hüquq-mühafizə orqanlarının əməkdaşlarını və mülki şəxsləri hədəf alan bir sıra terror hücumları baş verib. Fevralın 6-da İslamabadda şiə məscidi yaxınlığında törədilən intiharçı hücumu nəticəsində 30-dan çox insan həlak olub, təxminən 170 nəfər yaralanıb. Pakistan hakimiyyəti Əfqanıstanı öz ərazisində yerləşən terrorçu qruplara qarşı hərəkətsizlikdə ittiham edir. İslamabad bildirir ki, Kabil beynəlxalq öhdəliklərinə baxmayaraq, Əfqanıstan ərazisindən Pakistana hücum edən yaraqlılara qarşı heç bir tədbir görmür.

Bu dəfə isə Əfqanıstan əsgərlərinin sərhəd bölgələrinə hücumuna Pakistanın hava hücumları ilə cavab verib. Bu isə iki ölkə arasında müharibəni yenidən qızışdırıb.

### “Açıq müharibə” mesajı

Pakistanla Əfqanıstan arasında başlanan silahlı qarşıdurma ötən həftə sonundan etibarən tammiqyaslı müharibəyə çevrilib. Bu barədə məlumat verən Pakistanın müdafiə naziri Xavaca Asif İslamabadın Əfqanıstandakı Taliban hökumətinə qarşı “açıq müharibə” elan etdiyini bildirib: “İndi sizinlə açıq müharibə aparacağıq. İndi isə bu, qanlı bir müharibə olacaq. Pakistan ordusu xaricdən gəlməyib. Biz sizin qonşunuzuq, sizin dövrlərinizi bilirik”.

Nazir Taliban hökumətini “Əfqanıstanı Hindistan koloniyasına çevirməkdə”, “bütün dünyadan terrorçuları toplamaqda və terrorizmi ixrac etməkdə” və “Hindistanın oyuncağına çevrilməkdə” günahlandırıb.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif fevralın 27-də vəziyyətlə bağlı açıqlama verib: “Qüvvələrimiz istənilən təcavüzkar niyyəti əzməyə qadirdir. Bütün əhali Pakistan Silahlı Qüvvələri ilə çiyin-çiyinə dayanır”.

Prezident Asif Əli Zərdari isə “Taliban” hökuməti qüvvələri ilə sərhəddə gərginliyin artması fonunda Pakistanın suverenliyi, ərazi bütövlüyünü və vətəndaşlarını müdafiə etmək əzmində olduqlarını bildirib.

Qeyd edək ki, Taliban da Durand xətti boyunca - Xost, Paktiya, Nuristan və bir sıra digər ərazilərdə Pakistana qarşı əməliyyatlara başladığını elan edib. Pakistan isə bu addıma Əfqanıstanda hərbi obyektlərə hava zərbələri ilə cavab verib. Əfqanıstanın Ali Lideri Zəbihullah Mücahidin sözçüsü Pakistanın Əfqanıstanın 3 əyalətinə - Kabil, Qəndəhar və Paktiyaya hücumlar etdiyini bildirib. Mücahidin sözlərinə görə, itki və ya yaralanma barədə heç bir məlumat yoxdur.

“Al Jazeera”nın yaydığı məlumata görə, Əfqanıstanın paytaxtı Kabildə güclü partlayış, ardınca şiddətli atışma baş verib.

Vurğulandığı kimi, “Taliban” hökumətinin nümayəndəsi sərhəddə Pakistan hərbçilərinə qarşı genişmiqyaslı hücum əməliyyatının başladığını açıqlamışdı. Əfqanıstan tərəfi əlavə hərbi qüvvə göndərildiyini və sərhəd mövqelərinin gücləndirildiyini açıqlayıb. Pakistan rəsmiləri isə bildirirdi ki, atəş ilk olaraq Taliban qüvvələri tərəfindən açılıb və cavab atəşi ilə vəziyyət nəzarət altına alınıb. Əfqanıstanın bu xain hücumlarının ardından Pakistan ordusu cavabını gözlətməyib. Pakistan hakimiyyəti hücumun hədəfinin

### Əfqanıstan müqavimət göstərə bilmir

son vaxtlar ölkədə törədilən terror aktlarının təşkilatçıları olduğunu bəyan edib. Rəsmi İslamabadın açıqlamasına görə, Pakistan ölkədə həyata keçirilən kamikadze hücumlarının məhz Əfqanıstan ərazisindən idarə olunduğuna dair əllərində “təkzibolunmaz kəşfiyyat məlumatlarının” olduğunu bildirib. Pakistan Silahlı Qüvvələri Əfqanıstandakı mövqelərinə endirilən hava zərbələri nəticəsində ən azı 80 terrorçunu öldürüb. Məlumatı “Dawn” qəzeti Pakistan təhlükəsizlik qüvvələrindəki mənbələrə istinadən yayıb. Bildirilir ki, bazar günü gecə Pakistan təyyarələri Əfqanıstanın Nəngərhar, Paktika və Xost əyalətlərində Fitnə əl-Xəvaric qrupuna (əvvəllər Tehrik-e-Taliban Pakistan, TTP kimi tanınırdı) məxsus yeddi yaraqlı düşərgəsini məhv edib. Daha əvvəl Pakistan İnformasiya və Yayım Nazirliyi Pakistan qüvvələrinin TTP yaraqlılarına, eləcə də Əfqanıstandakı İŞİD terrorçu qrupunun filialı olan Vilayəti Xorasana qarşı hədəfli zərbələr endirdiyini bildirib. Nazirlik qeyd edib ki, əməliyyat Pakistanda son terror hücumlarına, o cümlədən İslamabadda məscidin bombalanmasına cavab olaraq həyata keçirilib.

Qeyd edək ki, Pakistan hərbçilərinin əks-hücum əməliyyatı nəticəsində Taliban qüvvələri geri çəkilib - bildirilib ki, “Əfqan Talibanı” Xayber-Paxtunxva əyalətində Pakistan-Əfqanıstan sərhədi boyunca bir neçə nöqtəyə təxribat xarakterli atəş açıb. Rəsmi İslamabadın məlumatına görə, buna dərhal və effektiv cavab verilib. Yayılan videoda Pakistan bayrağının talibləndən geri alınmış mövqedə qaldırıldığı göstərilib.




### Durand xətti problemi - Pakistanın haqlı mövqeyi...

Bəzi siyasi mütəxəssislər iki ölkə arasındakı gərginliyin Durand xəttinə istinad etdiyi fikrindədir. Belə ki, Durand xətti 1893-cü ildə Britaniya Hindistanı ilə Əfqanıstan arasında çəkilmiş sərhəd xəttidir. Bu xətt bu gün Pakistan ilə Əfqanıstan arasındakı rəsmi sərhəd sayılır - amma Əfqanıstan bunu tam olaraq qəbul etmir. 1893-cü ildə Britaniya Hindistanını təmsil edən Mortimer Durand ilə Əfqanıstan əmiri Abdur Rahman Xan arasında imzalanan razılaşmanın məqsədi Britaniya Hindistanı ilə Əfqanıstan arasında təsir zonalarını müəyyən etmək idi. Xətt bir çox puştun tayfalarını iki yerə böldü. Əfqanıstanın bugünkü iddiasına görə, razılaşma Britaniya ilə bağlanıb - bu mənada, Pakistanla sərhəd məsələsi yenidən müzakirə olunmalıdır. Hətta Əfqanıstan parlamenti vaxtilə bu müqaviləni etibarsız saydığını bəyan etmişdi.

Pakistan isə haqlı olaraq bildirir ki, beynəlxalq hüquqa görə mövcud sərhədlər varis dövlət tərəfindən qəbul edilir. Ona görə də Durand xətti rəsmi və beynəlxalq tanınmış sərhəddir. Xətt təxminən 2,6 km-dir və puştunların yaşadığı əraziləri iki yerə bölür. Pakistan sərhəd boyunca hasar çəkib. Taliban hakimiyyətə gəldikdən sonra isə sərhəd məsələsi yenidən gərginləşib.

Məsələnin Hindistanla bağlılığına gəldikdə isə, ekspertlərin fikrincə, son dövrlərdə Yeni Delhinin Əfqanıstandakı təsiri artıb. Hindistanın əli ilə bəzi dövlətlər strateji əhəmiyyətə malik Belucistan bölgəsi üzərindən Hörmüz boğazına nəzarəti gücləndirmək istəyir - bu, dünya enerji ticarətinə təsir imkanlarını artırmaq yolunda əsaslı addım sayıla bilər. Amma Pakistanın güclü ordusu, hava qüvvələri və ən əsası nüvə dövləti olması bu məqsədlərin həyata keçməsinin qarşısını alır.

### Əsas məqsəd...

Yeri gəlmişkən, Əfqanıstan Pakistanın nüvə obyektinə zərbə endirib. Bu barədə Əfqanıstanın “Ariana News” telekanalı məlumat yayıb. “Yerli mənbələr bildirir ki, Kokal rayonundakı hərbi mərkəzə və Pakistanın başqa bir nüvə mərkəzinə endirilən zərbələrdən sonra İslamabaddakı xəstəxanaya yüzlərlə ölü və yaralı aparılıb”, - deyə məlumatda bildirilir. Rəsmi qurumlar tərəfindən hadisə ilə bağlı hələlik açıqlama verilməyib.

*SADİQ*

# Avropada qaz qiymətləri 20 faizdən çox artıb



Yaxın Şərqdə gərginliyin artması enerji bazarlarını sarsıdaraq, təchizatın pozulması ilə bağlı narahatlıqları yenidən gündəmə gətirib. Həftənin əvvəlində Avropada təbii qazın qiyməti 20 faizdən çox artıb.

AZƏRTAC xəbər verir ki, ABŞ və İsrailin İrana qarşı birgə zərbələrinin cavab olaraq Tehranın atdığı addımlar Hörmüz boğazından keçən gəmi trafikini kəskin azaldıb. Bu boğaz dünya üzrə neft və mayeləşdirilmiş təbii qazın (LNG) daşınması üçün həyati əhəmiyyət daşıyan əsas marşrutlardan biridir.

Avropanın əsas qaz ticarət mərkəzi olan “Dutch Title Transfer Facility” (TTF) platformasında aprel müqaviləsi yerli vaxtla saat 10:41-də (07:41 GMT) meqavat-saat üçün 39,20 avro səviyyəsində ticarət olunub. Müqayisə üçün, 27 fevral tarixində - zərbələrdən əvvəl - bu göstərici 31,95 avro idi.

Bu artım qiymətləri 2025-ci il fevralın 18-dən bəri ən yüksək səviyyəyə çatdırıb. Həmin tarixdə meqavat-saat üçün qiymət 38,70 avro olmuşdu. Eyni zamanda, bu yüksəliş 2023-cü ilin avqustundan bəri faiz ifadəsində ən böyük sıçrayış hesab olunur.

Körfəz enerji istehsalçılarını Ərəb dənizi vasitəsilə qlobal bazarlarla birləşdirən Hörmüz boğazı dünya üzrə neft və mayeləşdirilmiş təbii qaz (LNG) ticarətinin təxminən 20 faizinin daşındığı strateji keçiddir. Qətərin LNG ixracının demək olar ki, hamısı bu dar keçiddən keçir ki, bu da onu beynəlxalq təchizat üçün kritik marşruta çevirir. Boğazdan keçən LNG-nin böyük hissəsi Asiyaya, xüsusilə Çinə yönəlsə də, mümkün uzunmüddətli fasilə riski qlobal miqyasda, xüsusən LNG idxalından yüksək dərəcədə asılı olan Avropada qiymətlərin artmasına səbəb olur.

Bundan əlavə, qaz anbarlarında ehtiyatların azalması da təzyiqi artırır. Avropada qaz ehtiyatlarının səviyyəsi 30 faizdən aşağı düşüb ki, bu da təchizat riskləri təsdiqlənəcəyi təqdirdə alıcıları əlavə yüklərin təmin edilməsi üçün daha təcili addımlar atmağa vadar edir.

# Tramp və Ali Məhkəmə:

## ticarət müharibəsinin hüquqi sərhədi və prezident səlahiyyətlərinin toqquşması

Yaxın Şərqdə baş verən geosiyasi silkələnmələr fonunda ABŞ-ın öz daxilində də az qala konstitusion xarakterli bir qarşıdurma yaşanır. ABŞ Ali Məhkəməsi tərəfindən qəbul edilən qərar yalnız ticarət siyasəti ilə bağlı deyil, bütövlükdə prezident hakimiyyətinin hüquqi sərhədlərinə dair prinsipial presedent yaratdı.

Ali Məhkəmə 6 lehinə, 3 əleyhinə səs çoxluğu ilə qərara aldı ki, Donald Tramp administrasiyasının 2025-ci il ərzində tətbiq etdiyi genişmiqyaslı idxal tarifləri Konstitusiyaya ziddir. Məhkəmənin əsas arqumenti ondan ibarət oldu ki, prezident bu tarifləri 1977-ci il “Beynəlxalq fövqəladə iqtisadi səlahiyyətlər haqqında” qanuna (IEEPA) istinadla tətbiq etsə də, həmin qanun vergi və gömrük rüsumlarının sistemli şəkildə dəyişdirilməsi üçün nəzərdə tutulmayıb. Məhkəmənin əsaslandırma hissəsi 170 səhifəlik rəy sənədi ilə təqdim edildi. Burada açıq şəkildə vurğulanırdı: “Vergi və ticarət siyasəti Konqresin müstəsna səlahiyyətidir. Prezident bu səlahiyyəti fövqəladə vəziyyət anlayışı ilə əvəz edə bilməz”.

**“Originalistlər” və Konstitusiyanın sərt oxunuşu**

Qərarın maraqlı tərəfi ondan ibarətdir ki, Trampın məğlub olduğu bu



işdə ona qarşı səs verən hakimlərdən ikisi məhz onun birinci prezidentliyi dövründə təyin etdiyi mühafizəkar hüquqşünaslar idi. Onlar özlərini “originalist” - yəni Konstitusiyanı sözbəsöz, tarixi mənasına uyğun şərh edən məktəbin nümayəndələri sayırlar.

Bu yanaşmaya görə, vergilər, gömrük rüsumları, xarici ticarət rejimi Konqresin səlahiyyət dairəsinə daxildir və icra hakimiyyəti yalnız məhdud və müvəqqəti çərçivədə müdaxilə edə bilər.

Trampın tarif siyasəti təsadüfi deyildi. 2024-cü ildə apardığı seçki kampaniyasından başlayaraq o, açıq şəkildə bəyan edirdi ki, ABŞ federal büdcəsi üçün yeni maliyyə mənbələri tapmaq lazımdır. Lakin Konqresdən keçən klassik vergi islahatları uzunmüddətli, siyasi baxımdan riskli və kompromislərlə doludur. Tariflər isə fərqli mexanizmdir: bir imza ilə qüvvəyə minir, xarici ölkələrə yönəlmiş kimi təqdim olunur, əslində isə yük sonda istehlakçının üzərinə düşür. Bu mənada tariflər gizli vergi funksiyası daşıyırdı. Tramp Konqresdəki çıxışlarından birində bunu gizlətməmişdi: “Tarifləri başqa ölkələr ödəyir. Bu, amerikalı ailələr üçün vergi yükünü azaldır”.

**Hüquqi paradoks: ABŞ niyə tariflərlə oynayır?**

Məsələnin dərin hüquqi kökü var. ABŞ dünyada idxal ƏDV-si olmayan nadir ölkələrdəndir. Avropa İttifaqında ƏDV: 16-27 faiz, Çində: 13 faiz, Hindistan, Avstraliya, Sinqapurda - GST sistemi, ABŞ-da isə yalnız satış vergisi mövcuddur, o da ştatdan ştata dəyişir (3-15 faiz). Tramp məhz bu boşluğu tariflərlə doldurmağa çalışırdı. Ali Məhkəmə isə faktiki olaraq dedi: “Bu, vergi islahatıdır, amma Konqressiz aparıla bilməz”. Bu qərar Trampı dayandırırmı? Xeyr. Qərar siyasi baxımdan Tramp üçün zərbə olsa da, strateji məğlubiyyət deyil. ABŞ qanunvericiliyi prezidentə alternativ mexanizmlər təqdim edir: 1962-ci il Ticarətin Genişləndirilməsi Aktı - Bölmə 232 (milli təhlükəsizlik əsaslı tariflər), 1974-cü il Ticarət Aktı - Bölmə 301 (ədalətsiz ticarət praktikalarına cavab). Bu mexanizmlər vaxt baxımından məhduddur, tarif dərəcəsini azaldır, lakin ardıcıl tətbiq olunduqda eyni effekti yaradır.

**Siyasi nəticə: güc bölgüsü yenidən xatırladıldı**

Bu qərarın əsas əhəmiyyəti tariflərdən daha genişdir. Ali Məhkəmə faktiki olaraq prezidentin fövqəladə səlahiyyət anlayışını daraltdı, Konqresin fiskal rolunu xatırlatdı, ABŞ daxilində institusional balansın hələ də işlədiyini göstərdi. Lakin eyni zamanda bir reallıq da üzə çıxdı: qlobal ticarət müharibələri artıq hüquqi deyil, siyasi alətə çevrilib. Tramp üçün tariflər iqtisadi mexanizm yox, siyasi silahdır. Ali Məhkəmə isə bu silahdan istifadəyə hüquqi çərçivə qoymağa çalışır. Bu qarşıdurma bir şeyi dəqiq göstərir: ABŞ-da ticarət siyasəti artıq yalnız iqtisadi məsələ deyil, konstitusion güc bölgüsünün testidir.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# İsveçrənin “neytral” siyasəti...

## “Qızılın kölgəsi”ndə nasizm “sevgisi”

Beynəlxalq hüquq dövlətlərarası münasibətlərin tənzimlənməsində əsas normativ çərçivə kimi çıxış edir və müharibə ilə sülh, əməkdaşlıq ilə qarşıdurma, ədalət ilə güc siyasəti arasında incə balansın qorunmasına xidmət göstərir. Bu sistemin əsas məqsədi yalnız dövlətlərin suverenliyini tanımaq deyil, eyni zamanda qlobal təhlükəsizliyi, insan hüquqlarını və beynəlxalq sabitliyi təmin etməkdir. Lakin tarix göstərir ki, bəzi hallarda dövlətlər beynəlxalq hüququn yaratdığı imkanlardan selektiv və praqmatik şəkildə istifadə edərək onu öz milli maraqlarının örtüyünə çevirirlər. Belə yanaşma formal olaraq hüquqi çərçivəyə uyğun görünsə də, mahiyyət etibarilə qlobal ədalət prinsipinə zidd nəticələr doğura bilir.

Xüsusilə neytrallıq statusu daşıyan dövlətlərin davranışı beynəlxalq hüququn praktik tətbiqi baxımından daim müzakirə mövzusu olub. Neytrallıq anlayışı klassik mənada münaqişəyə qoşulmamaq, hərbi bloklarda yer almamaq və tərəflərdən heç birinə birbaşa hərbi dəstək göstərməmək deməkdir. Dövlət hərbi əməliyyatlarda iştirak etməməklə yanaşı, maliyyə və iqtisadi fəaliyyəti ilə müharibə aparan tərəflərdən birinin davamlılığına real təsir göstərməməlidir. XX əsrin ən faciəvi hadisəsi olan İkinci Dünya müharibəsi dövründə neytral statusunu qoruyan İsveçrənin fəaliyyəti bu kontekstdə geniş araşdırılma tələb edir...




**İsveçrə nasist Almaniyasını necə dəstəklədi?**

Qeyd edildiyi kimi, İsveçrə uzun müddət beynəlxalq ictimaiyyətdə neytral, sabit və humanitar ənənələrə malik dövlət kimi qəbul edilib. Lakin II Dünya müharibəsinə dair arxiv sənədləri və sonrakı araşdırmalar göstərir ki, bu ölkənin neytrallıq siyasəti hər zaman tam mənəvi neytrallıq anlamını kəsb etməyib - dövlətin bank sektoru, sənaye müəssisələri və ticarət strukturları II Dünya müharibəsi zamanı nasist Almaniyası ilə intensiv iqtisadi əlaqədə olublar. Bu faktlar beynəlxalq hüququn yalnız formal öhdəliklər toplusu olmadığını, eyni zamanda etik məsuliyyət sistemi olduğunu da xatırladır. Əgər beynəlxalq hüquq dünənin faciələrindən dərs çıxararaq bu günün və sabahın təhlükəsizliyini təmin etməlidirsə, onda tarixi təcrübələr obyektiv şəkildə qiymətləndirilməlidir. Dövlətlərin müharibə dövründə qazandıqları iqtisadi üstünlüklər, xüsusilə insanlıq əleyhinə cinayətlər fonunda əldə olunmuş mənfəətlər, yalnız hüquqi deyil, həm də mənəvi məsuliyyət məsələsi doğurur.

**Qaranlıq “qızıl əməliyyatları”...**

Bəli, İsveçrə neytrallıq statusuna rəğmən İkinci Dünya müharibəsi dövründə nasist Almaniyası ilə geniş maliyyə əlaqələri saxlayıb. Xüsusilə İsveçrənin mərkəzi bankı olan Swiss National Bank Almaniya ilə iri həcmli qızıl əməliyyatları həyata keçirib. Tarixi sənədlər göstərir ki, bu qızılın mühüm hissəsi Almaniya tərəfindən işğal olunmuş Avropa ölkələrinin mərkəzi banklarından müsadirə edilib, bir qismi isə Holokost qurbanlarından talan olunmuş aktivlərdən ibarət olub.

Müharibə şəraitində Almaniya beynəlxalq maliyyə sistemində ciddi təcrid vəziyyətinə düşmüşdü. Bir çox dövlətlər və banklar Almaniya ilə birbaşa maliyyə əməliyyatlarını məhdudlaşdırmışdı. Bu şəraitdə İsveçrə bank sistemi Almaniya üçün mühüm tranzit və konversiya mərkəzinə çevrildi. Qızılın İsveçrə bankları vasitəsilə sərt valyutaya çevrilməsi Almaniyanın xaricdən strateji xammal və resurslar almasına imkan yaratdı. Beləliklə, formal olaraq neytral mövqe saxlayan dövlət faktiki olaraq Almaniya iqtisadiyyatının davamlılığına dolayı dəstək verdi.

Bu proses yalnız texniki maliyyə əməliyyatı deyildi. Müharibə dövründə qızılın mənşəyi barədə məlumatların tam məlum olmadığı iddia edilsə də, sonrakı araşdırmalar göstərmişdi ki, İsveçrə maliyyə institutları qızılın mənşəyi ilə bağlı risklərdən xəbərdar idilər və buna baxmayaraq, əməliyyatları davam etdirirdilər. Bu isə insanlıq əleyhinə cinayətlərdən əldə olunan vəsaitlərin dövriyyəsinə şərait yaratmaq kimi ağır mənəvi məsuliyyət doğururdu.

**Hitler Almaniyası ilə ticarət və sənaye əməkdaşlığı...**

İsveçrə müharibə illərində nasist Almaniyası ilə əhəmiyyətli ticarət və sənaye əməkdaşlığını da davam etdirib. İsveçrə şirkətləri Almaniyaya maşınqayırma avadanlıqları, yüksək dəqiqlikli optik və mexaniki alətlər, kimyəvi məhsullar və hərbi istehsalda istifadə oluna bilən ikili təyinatlı mallar ixrac edib. Bu məhsullar Almaniyanın sənaye və hərbi kompleksinin texnoloji səviyyəsinin qorunmasında mühüm rol oynayıb. Digər tərəfdən, İsveçrə Almaniyadan kömür və digər strateji xammal idxal edirdi. İsveçrənin enerji ehtiyatlarının məhdudluğu onu Almaniya ilə iqtisadi əməkdaşlığa müəyyən mənada məcbur edirdi. Bu qarşılıqlı asılılıq modeli hər iki tərəf üçün faydalı görünürdü: Almaniya texnoloji məhsullar əldə edir, İsveçrə isə sənayesini işlək saxlamaq üçün zəruri resursları təmin edirdi.



Lakin burada əsas məsələ ticarətin həcmi və xarakteridir. Müharibə dövründə ixrac olunan məhsulların bir qismi birbaşa hərbi istehsalda istifadə olunurdu. Bu isə İsveçrənin formal olaraq hərbi əməliyyatlarda iştirak etməməsinə baxmayaraq, Almaniyanın hərbi potensialının qorunmasına əsaslı töhfə verdiyini göstərir. Neytrallıq hüquqi status kimi qorunmuşdu - lakin iqtisadi reallıq Almaniyanın müharibə imkanlarını daha da gücləndirirdi.

**İsveçrə yəhudi qaçqınlara “qapı” açmayıb...**

İsveçrə o dövrün ən mühüm problemlərindən sayılan qaçqın məsələsində də özünəməxsus “neytrallıq” nümayiş etdirmişdi. Belə ki, 1942-ci ildən etibarən İsveçrə yəhudi qaçqınların ölkəyə girişinə kəskin məhdudiyyətlər tətbiq etmişdi. Bu dövrdə Almaniya tərəfindən tətbiq olunan ayrı-seçkilik xarakterli pasport nişanələri - xüsusilə yəhudilərin sənədlərində “J” işarəsinin vurulması - İsveçrə sərhəd orqanları tərəfindən tanınmış və tətbiq olunmuşdu. Nəticədə, minlərlə insan sığınacaq əldə etmək imkanından məhrum edilmişdi.

İsveçrə rəhbərliyi bu siyasəti ölkənin resurslarının məhdudluğu və təhlükəsizlik riskləri ilə əsaslandırırdı - amma sonrakı araşdırmalar göstərmişdi ki, qəbul edilə biləcək qaçqın kvotasının daha yüksək olması mümkün idi və tətbiq olunan məhdudiyyətlər bir çox hallarda siyasi seçim xarakteri daşıyırdı.

Bu siyasət İsveçrənin humanitar imici ilə ziddiyyət təşkil edirdi. Sonrakı illərdə dövlət səviyyəsində bəzi qərarların səhv olduğu etiraf edildi və müəyyən mənəvi məsuliyyət qəbul olundu. Qaçqınların geri qaytarılması bir çox hallarda onların ölüm düşərgələrinə göndərilməsi ilə nəticələndi ki, bu da neytral dövlətin etik mövqeyini ciddi sual altına aldı.

**Bergier Komissiyasının hesabatı - nasizm dəstəklənib...**

1996-cı ildə İsveçrə hökumətinin təşəbbüsü ilə yaradılmış Bergier Komissiyası müharibə dövründə ölkənin iqtisadi və maliyyə fəaliyyətini geniş şəkildə araşdırdı. Komissiyanın yekun hesabatları təsdiq etdi ki, İsveçrənin müharibə illərindəki davranışı əksər hallarda nasist cinayətlərindən qaynaqlanan iqtisadi fayda əldə olunması ilə müşayiət edilib.

Araşdırmalar göstərmişdi ki, İsveçrə birbaşa hərbi əməkdaşlıqdan yayınsa da, maliyyə və ticarət sahəsindəki fəallığı Almaniyanın iqtisadi dayanıqlığının daha uzun müddət qorunmasına imkan yaradıb. Qızıl əməliyyatları, bank hesablarının taleyi və qaçqın siyasəti kimi məsələlər obyektiv sənədlərlə təhlil edilmişdi.

Komissiyanın fəaliyyəti İsveçrədə ictimai müzakirələrə səbəb olmuş, bank sektorunun və dövlət qurumlarının tarixi məsuliyyəti geniş debatlara yol açmışdı. Bu proses beynəlxalq hüquqda tarixi ədalətin bərpası və keçmişlə üzləşmə mexanizmlərinin əhəmiyyətini bir daha göstərmişdi. Dövlətlərin keçmiş fəaliyyətlərinin araşdırılması və ictimaiyyətə açıqlanması beynəlxalq etimadın bərpası baxımından mühüm rol oynayır.

**İsveçrənin “neytrallıq” təcrübəsi...**

Beləliklə, İkinci Dünya müharibəsi dövründə İsveçrənin fəaliyyəti beynəlxalq hüquq və neytrallıq anlayışlarının praktik tətbiqinin mürəkkəbliyini nümayiş etdirir. Formal olaraq neytral status saxlanılsa da, maliyyə və iqtisadi münasibətlər müharibə aparan tərəfin dəstəklənməsi beynəlxalq hüququn yalnız hüquqi çərçivə deyil, həm də mənəvi məsuliyyət sistemi olduğunu göstərir. İsveçrənin təcrübəsi sübut edir ki, neytrallıq yalnız hərbi iştirakdan imtina deyil, həm də insanlıq əleyhinə cinayətlərdən məsafə saxlamaq deməkdir. Əks halda, formal hüquqi mövqe real nəticələr fonunda öz legitimliyini itirə bilər. Bergier Komissiyasının araşdırmaları və sonrakı ictimai müzakirələr göstərdi ki, tarixi məsuliyyətlə üzləşmək qaçılmazdır - tarix isə həm də bu qiymətləndirmə üçün ən ciddi və obyektiv meyardır.

***P.İSMAYILOV***

# Həyatı özünə işlədən adam

## Çarlz Dikkensin “Devid Kopperfild” romanı haqqında

Romanın birinci nəşrinə yazdığı ön sözdə Dikkens demişdi ki, kitabları arasında ən çox bəyəndiyi bu kitabdır. Sonrakı illərdə neçə-neçə roman yazsa da, yetim, kimsəsiz Devidin əlindən tutub onu qaldıran, onu bütün dünyaya tanıdan mənəvi atası, yaradanı şah əsərinin boyunu sevdiyi qəhrəmanını şahlıq taxtından düşürməmişdi.

“Devid Kopperfild”i avtobioqrafik roman, macəra romanı, tərbiyəvi, yəni uşaqlar, yeniyetmələr üçün yazılmış roman, hətta roman-felyeton sayanlar var. Bu dəyərləndirmələrin hər birində həqiqət payı tapmaq mümkündür, romanın mayası melodramatik səhnələrdən tutmuş sosial satira elementlərinə qədər bir çox janrın qatışığından tutulub, bununla belə: əsərdə müəllifin heç bir başqa romanında olmadığı qədər avtobioqrafik elementlər varsa da, bu, avtobioqrafik əsər deyil; roman lazım gələndə macəralarla dolu uşaq ədəbiyyatı nümunəsi kimi təqdim oluna bilərsə də, tərbiyəvi roman, macəra romanı deyil; kitabda satiranın yumorla çulğaşdığı, kinayənin istehzaya qarışdığı bəs deyincə məqam tapılarsa da, bu kitab, Hessenin təbiriylə desək, “felyeton epoxası”nın məhsulu da deyil. Bəs onda nədir?

***

Dikkensdən səkkiz il tez dünyaya gəlmiş böyük alman filosofu Lüdviq Feyerbax deyirdi ki, insan insanın allahıdır (ya da ən azı belə olmalıdır), fərd özünü yalnız başqalarında dərk eləyə bilər; vicdan dedikləri də Tanrının içimizdə səslənən sədası yox, həmin o başqalarının qəlbimizdən baxan gözüdür. Yəni insan başqalarının güzgüsündə görünməsə, nə Allah olar, nə vicdan; Allahı sevmək elə bəşəriyyətə bağlanmaqdır, Allahdan qorxmaq da elə başqalarından çəkinməkdir.

Özünü başqasında tapmağın fəlsəfəsinə Orxan Pamukun “Qara kitab” romanından, həmin kontekstdə Fəriddəddin Əttarın “Məntiqüt-teyr” poemasından danışanda toxunmuşduq. Zahirən nə qədər uzaq görünsələr də, “Devid Kopperfild”in leytmotivi bu əsərlərin ana mövzusuna qohumdur: həyat yolunda ağır əzab-əziyyət çəkən, ancaq haqdan dönməyən, ötəri maraqlara aludə olmayan, dahi Kantın təbiriylə desək, başqalarını vasitə yox, məqsəd sayan, onları xoşbəxtliyə çatdırmağı ömrünün mənası bilən, özünə sevdiklərinin gözüylə baxan mömin qəlb sonda həyatını həsr elədiyi adamların səcdəgahına, idealına, tanrısına çevrilir, ilahi əməliyyatla toplanan fərdlərin cəminə dönür, ayrı-ayrı aləmləri calayıb şəbəkələndirib bir bütöv superdünya inşa eləyir. Yoxdan yaratdığı kainatın içinə əliboş, çılpaq, tək-tənha gələn ruh burada təkliyini cəmləyib itkilərini bir yerə toplamağa, əlindən çıxmış dünyanı ömrün xarabalıqları üzərində yenidən qurub yaratmağa, xaliqin binasını abad eləməyə çalışır.

Əlbəttə, bütün bunlar o demək deyil ki, Dikkens sevimli romanını qələmə alanda məhz bu cür, məhz belə düşünüb, yaxud şərq ezoterizmindən, qərb mistisizmindən təsirlənib. Ancaq bu, onun kitabından oxşar nəticələr çıxarmağa mane olmur, olmamalıdır; çünki biz müəllifin bizə şüurlu şəkildə nə dediyindən daha çox, kitabı ona yazdıran şüursuz intuisiya dalğalarının xassəsini, onun yaradıcı təbiətinin tərkibini, ruhunun xarakterini öyrənməyə, ilhamının şifrələrini çözməyə çalışırıq. Başqa sözlə, ilham ağıldan, istedad savaddan çox bilir - bəzən yazıçı öz əsərini belə doğru-düzgün yozmağa çətinlik çəkir. Bu baxımdan Dikkensin cana yaxın qəhrəmanının Avropa ədəbiyyatında İsa Məsihin varislərindən biri olduğunu söyləməyə, məncə, haqqımız çatar. İnanıram ki, bu yozumu mömin xristian kimi tanınmış müəllifin özü də həvəslə təsdiqləyərdi.

***

Ümumiyyətlə, Dikkens yaradıcılığında Bibliya mövzuları, İncil motivləriylə gizli-aşkar əlaqələr çoxdur. Bu məsələyə “Oliver Tvist”dən danışanda da toxunmuşduq. “Devid Kopperfild” romanında isə Əhdi-ətiqin ən mühüm, həm də ən populyar fəsillərindən sayılan Davud peyğəmbər haqqında rəvayətə istinad, yaxud indi işlək olan təbirlə desək, göndərmə var.

O rəvayətdə nədən danışıldığını xatırladası olsaq, qısaca bunları söyləyə bilərik: yəhudi padşahı Davud sarayının külafirəngisindən ordusunda xidmət çəkən xett əsilli qoçaq sərkərdə Uriyanın arvadı Virsaviyanı (Badsəba, Batşeva) çimdiyi yerdə görüb qadına vurulur. Virsaviyanın həm əmisi oğlu, həm də əri Uriya bu vaxt cəbhədə düşmənlərlə savaşmaqda olur. Dostunun, silahdaşının halalını ələ keçirən Davud qadının hamilə qaldığını biləndə Uriyanı cəbhədən geri çağırıb onu bir neçə günlüyə arvadının sərəncamına vermək istəyir. Ancaq Uriya ləyaqətli bir döyüşçütək əsgər yoldaşlarının ölüm-dirim savaşı apardığı vaxtda qadın yatağına döşənməyi kişiliyinə sığışdırmır, evdə bənd almayıb ön cəbhəyə qayıdır. Bundan sonra xəyanətin üstünün açılacağını görən yəhudi peyğəmbəri dostunun cənnətə ezam olunması üçün təcili tədbir tökür.

Əlbəttə, tanrı Yahve buna görə Davudu cəzalandırır, ancaq nədənsə onun göndərdiyi din mərd, qəhrəman Uriyanı şəhid, əzabkeş elan eləməkdənsə zinakar, məkrli Davudun başına müqəddəslik çələngi qoyur, üstəlik, onun naməhrəm qadınla haram əlaqəsindən mayalanmış oğlu Süleymanı atasından sonra taxta çıxarır, peyğəmbərliyi də məhz Davudun bu oğluna ötürür. Söz yox ki, biz heç bir ailənin daxili işlərinə, heç bir qövmün öz tanrısıyla münasibətlərinə qarışa bilmərik, ancaq qəribə burasıdır ki, sonra gələn dinlərin ardıcılları da bu məsələdə fərqli mövqe tutmayıblar, xəyanətə uğramış zavallı Uriyanı, necə deyərlər, zərərçəkmiş kimi tanımayıblar. İstər xristian olsun, istər müsəlman - heç biri ölüb getmiş, adı tarixdən silinmiş xalqın oğluna yiyə durmayıb. Hətta Çarlz Dikkens kimi humanist yazıçı da bu məsələdə tərəfkeşlik eləyib - müsbət qəhrəmanına Davudun, mənfi personajına Uriyanın adını verib.

Bunları da ona görə dedim ki, Dikkensdən danışanda onun şirin, həm də dərin yumorunun təsiri altına düşməmək mümkün deyil...

***

Roman avtobioqrafik üslubda qələmə alınıb, yəni əsərdə baş verənlər birinci şəxsin dilindən danışılır. Bu, kitabın adında da əksini tapıb, əslində, müəllif əsərinə çox uzun, sicilləmə bir ad verib, “Devid Kopperfild” romanın sadə, qısaldılmış adıdır.

O dövrün romançılığında bu cür təhkiyə tərzi o qədər də yayğın deyildi, yazıçılar əsərlərindəki hadisələri adətən özləri idarə eləyirdilər, sükanı personajlara vermirdilər. Hətta Flober kimi demokrat müəllif də qəhrəmanlarını özbaşına buraxmır, onları yumşaq güclə, ipək əllə, lap elə həlim baxışla, him-cimlə olsa belə yenə özü yönəldir, heç kimə etibar eləmirdi. Devidin qəzavü-qədəri yazıldığı zamanlarda epistolyar janrla sənədli nəsrin, memuarla gündəliyin qovuşağında meydana gələn avtobioqrafik üslub yeni-yeni pərvəriş tapırdı; Dikkensin ana kitabının tamamlandığı 1849-cu ilə qədər (çapdan 1850-də çıxıb) bu stildə yalnız bir böyük roman vardı, o da Şarlotta Brontenin “Devid Kopperfild”dən vur-tut iki-üç il qabaq işıq üzü görmüş məşhur “Ceyn Eyr” romanıydı. Ancaq yuxarıda dediyimiz kimi, bu romandan fərqli olaraq Dikkensin əsərini avtobioqrafik janra aid eləmək olmaz, sadəcə, müəllif kitabı həmin üslubda qələmə alıb. Bəlkə də yazıçı bu fəndi işlətməklə oxucularını “aldatmaq”, onları yazdıqlarının gerçəkliyinə daha asan, daha möhkəm inandırmaq məqsədi güdüb.

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






## Ramazan ayı 13-cü günün duası

**"Allahummə təhhirni fihi minəd-dənəsi vəl-əqzar. Və səbbirni fihi əla kainatil-əqdar. Və vəffiqni fihi lit- tuqa və suhbətil-əbrar. Bi-ovnikə ya qurrətə eynil- məsakin".**

**Tərcüməsi:**

**"İlahi, bu gün məni günahların kəsafət və çirkinliyindən təmizlə! Qəzavü-qədərə uyğun bu gün baş verən hadisələrdə məni səbrli et! Bu gün məni təqvaya və yaxşı insanların söhbətinə müvəffəq et! Yardımına and verirəm, ey çarəsizlərin gözünün işığı"**

## Od çərşənbəsinin unudulmuş adətləri

*Yeganə BAYRAMOVA*

Hələ qədim zamanlardan od bəşər övladlarının həyatında mühüm əhəmiyyət kəsb edib. İnsanlar odu kəşf etdikdən sonra onun köməyi ilə həm vəhşi heyvanların hücumundan qorunub, həm soyuqdan, donmaqdan xilas olub, həm də məişətdə istifadə ediblər. Beləliklə, odu, işığı hər zaman müqəddəs biliblər.

Bu gün Novruz çərşənbələrindən ikincisi - Od çərşənbəsidir. Xalq arasında ona "üskü çərşənbə", "üskü gecəsi", "ikinci çərşənbə" və yaxud "addı çərşənbə" də deyilir. Od çərşənbəsinin qeyd edilməsi qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Odun, tonqalın olması istilik mənasını ifadə edir və yazın gəlişi də havaların isinməsinin əsas göstəricisidir.

**Oda və Od çərşənbəsinə inam**

Od çərşənbəsində od rəmzi istilah daşıyır. O, yandırıb-yaxan, istilik verən məfhum kimi yox, müqəddəs, təmizləyici bir varlıq kimi təsvir edilir. "Suyun yumadığını od təmizlər" ifadəsi də buradan götürülüb. Adətə görə, Od çərşənbəsində bayram tonqalını həyət darvazasının ağzında qalayırlar. Səbəbi isə odur ki, həyətə keçən özüylə bərabər ağırlıq, pis niyyəti gətirməsin, hamısı elə alovda yansın, yox olsun.

Mifoloji dünyagörüş xalqın şüuraltısında hər zaman yaşayıb. Od çərşənbəsi əsəsən, ağırlıq-uğurluğun məhv olduğu çərşənbə kimi xarakterizə olunur. Türk dünyagörüşünün mifoloji qatında mistik qüvvələrə inam hər zaman olub. Hər zaman da o qara qüvvələri məhz odun məhv edə biləcəyinə inanıblar. Od çərşənbəsi həm də, onların məhvi baxımından vacib ritual sayılıb. "Qara yerdən üstünə qonan görünməzlər var, oda ver, yandır", - deyilir, bu çərşənbədə...

**Qədim zamanlarda Od çərşənbəsi**

Od qədim Azərbaycan xalqının təfəkkürüncə, işıqlı sabah, xeyir-bərəkət rəmzi olub. Bu çərşənbədə tonqallar daha möhtəşəm yandırılardı, alovu ruhi arınma mərhələsinin sonu hesab edərdilər. Qədim dövrlərdə Od çərşənbəsində tonqalı hündür yerdə-dağ, təpə başında qalayar, bütün el həmin tonqalın başına yığışar, odunlar yenicə alışmaya başlayanda qız-gəlin odun şərəfinə nəğmələr söyləyərmiş.

Qədimdə Od çərşənbəsində başqa bir yaxşı adət də olub: Qohum-qonşular yasda olan ailənin həyətində tonqal qalayar, bununla da o ailəni yasdan çıxarırmışlar.

**Bu adətlər unudulur...**

Ayı oynatma - burada ayı simvolik anlamdadır, təbii ki, başqa heyvanlar da ola bilər. Bu, həm Od, həm də qarşıdakı digər iki çərşənbədə göstərilən tamaşadır. Bir adama ayı dərisindən kürk geyindirilir. Başqa bir adam onun boynuna zəncir salıb tamaşaçıların toplaşdığı meydana aparır. Burada ayı onların üzərinə atılmaqla guya, adamları qorxutmaq istəyir. Meydanda kimlərisə yamsılayır və insanların alqışını qazanır. Ayının yamsıladığı adamların arasında cütçü mütləq olmalıdır. Bu da ayılan torpağa olan münasibəti əks etdirir. Bu oyuna oxşar dəvəoynatma oyunu da var.

## İkinci çərşənbə...



Açar falı: Çərşənbələrdə ürəyində niyyət tutan şəxs özü ilə açar götürüb evlərinin yanındakı yola çıxır. Yolayrıcı olan yerdə açarı sağ ayağının altına qoyub gözləyir. Yoldan ötənlərin ilk sözünü eşidib yadında saxlayır və açarı da götürərək geri qayıdır. Eşitdiyi söz xoş bir məna verirsə, yaxşı nəsə haqqındadırsa, həmin adam niyyətinin baş tutacağına inanır. Buradakı açar isə simvolik olaraq həmin niyyətin açarı deməkdir.

Alma falı: Od çərşənbəsində 2 alma seçilir və onlardan birinə nişan qoyulur. Daha sonra həmin nişanı gizlədərək niyyət tutur və evdəkilərdən birinə almalardan hansınısa götürməsi deyilir. Həmin adam əgər nişanlanmış almanı götürərsə, bu niyyətin doğrulacağına işarə kimi anlaşılır. Burada istifadə olunan alma mifoloji dünyagörüşdə xoşbəxtlik, uğur bəxş edən rəmzi motivin daşıyıcısıdır.

Ümumiyyətlə, Novruz bayramı insana və bəşəriyyətə faydalı olan ən gözəl adət-ənələri özündə birləşdirərək, əcdadlarımızın dünyagörüşünü, düşüncə tərzini əks etdirir. Novruz və ondan əvvəl keçirilən çərşənbələr xalqımızın həyata, təbiətə, torpağa, zəhmətə məhəbbətinin təzahürüdür.

## Təbiətin tarazlığı pozularsa...

### Vəhşi təbiəti qorumaq zamanıdır

*Yeganə BAYRAMOVA*

Dünya sürətlə dəyişir. Meşələr azalır, iqlim dəyişir, okeanlar çirklənir. Hər il minlərlə canlı növü ya məhv olur, ya da yox olmaq təhlükəsi ilə üzləşir. Vəhşi təbiət isə sadəcə ekzotik heyvanlardan və ya uzaq tropik meşələrdən ibarət deyil. O, bizim nəfəs aldığımız havadır, içdiyimiz sudur, süfrəmizə gələn nemətdir.



Planetin təbii tarazlığı pozulduqda, bunun təsiri birbaşa insan həyatına toxunur. Arıların azalması kənd təsərrüfatına, meşələrin qırılması iqlimə, dəniz canlılarının tükənməsi qida təhlükəsizliyinə təsir göstərir. Bir sözlə, təbiətin hər bir elementi böyük bir zəncirin halqasıdır.

**53 yaşlı konvensiya**

Bu gün Ümumdünya Vəhşi Təbiət Günüdür. 2013-cü il dekabrın 20-də BMT Baş Assambleyası qətnamə ilə geniş ictimaiyyəti vəhşi fauna və flora məsələlərində məlumatlandırmaq üçün 3 mart tarixini elan etmək qərarına gəlib. Həmin hadisə BMT-nin tarixində ayrıca bir mərhələdir. Belə ki, həmin il təbii müxtəlifliyin qorunması sahəsində daha bir mühüm sənədin qəbul edilməsinin 40 illiyinə təsadüf edirdi. Bu, nəsli kəsilməkdə olan vəhşi fauna və flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya (CITES) adlanırdı. Sənəd 1973-cü il martın 3-də qəbul edilmişdi. Bu il Konvensiyanın imzalanmasının 53 illiyi qeyd edilir.

**1 milyon növ təhlükə altındadır**

Ümumilikdə CITES tərəfindən təxminən 5,9 min heyvan və 32,8 min bitki növü qorunur. Onlar CITES-in üç əlavəsində verilib və məhv olmaq təhlükəsi dərəcəsinə görə qruplaşdırılıb.

Bu gün bütün dünyada vəhşi təbiət təhlükə altındadır. Növlərin dörddəbiri nəsli kəsilmək təhlükəsi ilə üzləşir, çünki planet sakinləri onların yaşadıqları ekosistemlərin demək olar ki, yarısını məhv edib. Nəsli kəsilməkdə olan növlər qrupuna kaktuslar, dəniz yosunları, zürafələr, tutuquşular və palıdlar daxildir. Hazırda bir milyon növ təhlükə altındadır. Bu tendensiyanın qarşısını almaq üçün təcili tədbirlər görülməlidir.

Ümumdünya Vəhşi Təbiət Günü vəhşi təbiətin müxtəlifliyini və gözəlliyini vurğulamaq imkanı verir. Bundan əlavə, bu gün bizə geniş iqtisadi, ekoloji və sosial nəticələri olan vəhşi təbiət cinayətlərinə qarşı mübarizənin gücləndirilməsinin zəruriliyini xatırladır.

**Dünyada hər 5 nəfərdən biri...**

Nəsli kəsilməkdə olan fauna və flora növlərinin sayının qorunub saxlanması, onların tamamilə yox olmasının digər növlər üçün mümkün nəticələri ilə bağlı narahatlıq bütün dünyada qayğıkeş elm, siyasət, iqtisadi sahə və sadə vətəndaşları vəhşi təbiəti xilas etmək üçün güclərini birləşdirməyə sövq edir. Getdikcə daha çox insan planetin həyatında təkcə insanın deyil, hər bir canlının, istər heyvanın, istərsə də bitkinin əhəmiyyəti haqqında düşünür. Axı dünyada milyardlarla insan 50 min vəhşi flora və fauna növündən asılıdır. Dünyada hər 5 nəfərdən biri gəlirini və qidasını vəhşi növlərdən əldə edir və 2,4 milyard insan yemək bişirmək üçün odun yanacağından asılıdır.

İnsanların təbiətin gözəlliyi, onun müxtəlifliyi və hər bir fərdi növün unikallığı haqqında məlumatlandırılması bu uyğunlaşma prosesinə kömək etməlidir. Şüurun və vəhşi təbiətə münasibətin dəyişməsi, təbii sərvətlərin sonsuzluğu ideyasından imtina gələcək nəsillərə vəhşi təbiətlə çox ahəngdar yaşamağın yolunu tapmağa imkan verəcək...

## Bakcell müştəri xidmətlərində rəqəmsallaşmanı genişləndirir




İnnovasiya lideri Bakcell müştəri xidmətlərində proseslərin daha sürətli və təhlükəsiz şəkildə həyata keçirilməsi məqsədilə "SİMA" texnologiyası əsasında biometrik verifikasiya həllini tətbiq edib.

Yeniliyə əsasən, rəsmi satış nöqtələrində həyata keçirilən nömrə və cihaz satışı, nömrənin addan ada keçirilməsi, eləcə də nömrənin dublikatı xidmətinə dair əməliyyatlar zamanı müştərilərin identifikasiyası "SİMA" tərəfindən təqdim edilən üz tanıma texnologiyası əsasında icra olunur.

"SİMA" üzərindən tətbiq edilən biometrik verifikasiya təhlükəsizlik səviyyəsinin daha da gücləndirilməsinə xidmət edir və proseslərin icrasını sadələşdirir. Eyni zamanda, kağızsız sənəd dövriyyəsi sayəsində xidmət müddəti əhəmiyyətli dərəcədə qısalır və müştəri təcrübəsi optimallaşdırılır.

Bakcell müştəri xidmətlərində rəqəmsal həllərin tətbiqini mərhələli şəkildə genişləndirməyi planlaşdırır.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

### Allah rəhmət eləsin!

Milli Onkologiya Mərkəzinin kollektivi Mərkəzin əməkdaşı **HÜSEYNOVA RUFA ƏBDÜL QIZININ** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə baş sağlığı verir.

**Allah rəhmət eləsin!**


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4919**
**Sifariş: 324**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova